# XIII-XIV əsrlər tarixinə yeni baxış

**DƏRS VƏSAİTİ**

BAKI 2018

**Müəllif – Tarix üzrə elmlər doktoru Məhərrəm Zülfüqarlı**

**Elmi redaktor: t.ü.e.d., prof, Dövlət Mükafatı laueratı Kərim Şükürov**

**Rəyçi : f.ü.e.d., prof. Zaur Bağırov**

**t.e.n., dos. Badadur Bilalov**

Dərs vəsaiti Azərbaycan Turizm və Menecment Universiteti Elmi Şurasının 28 noyabr 2018-ci il tarixli iclasının ( Protokol №3 ) qərarı ilə nəşr olunub

Sizə təqdim olunan bu kitab altertaniv dərs vəsaiti kimi tərtib olunub. Dərs vəsaitində bu vaxta qədər nəşr olunmuş kitablarda tatar-monqollara olan münasibətdən fərqli baxış öz əksini tapıb. Kitabın yazılmasında əsas məqsəd əvvəllər sovet tarixşünaslığının təsiri ilə yazılmış kitablarda monqol adlandırılan, lakin əksəriyyəti türklərdən ibarət olan topluma düşmənçilikdən uzaq, obyektiv yanaşmanın formalaşmasına kömək etməkdir.

Mündəricat


- Ön söz
- Tatar-monqolların  tarixdə yeri və rolu
- Qərbi Avropa, ərəb, rus və sovet tarixşünaslığında  tatar-monqollara düşmən münasibətin səbəbləri
- Tatar- monqollar Azərbaycan  tarixşünaslığında
- Azərbaycan xalqının etnogenezində tatar-monqolların rolu
- Nəticə

**Ön söz**

*Azərbaycan xalqının fəxri, görkəmli alim Nəsrəddin Tusinin yaratdığı Marağa rəsədxanası dünya şöhrətli tarixi abidələrindən biri. 2015-ci ildə Marağa şəhərində olarkən gözlədiyimizin əksinə olaraq bu abidəyə ögey münasibətin, baxımsızlığın şahidi olduq.(Bax: kitabın arxasında şəkillər) Bizi müşayət edən təbrizli soydaşımızdan bunun səbəblərini soruşanda bildirdi ki, İranda Hülakülər işğalçı hesab edildiyindən bu abidəyə də münasibət yaxşı deyil. Marağa rəsədxanasına məhz bu cür ögey münasibət bizi XIII-XIV əsrlər tarixinə yenidən nəzər salmağa vadar etdi.*

*Dərsliklərdə əvvəllər tatar-monqol , monqol-tatarlar, hazırda isə monqollar adlandırılan topluma aid müxtəlif dövlətlərin tarixşünaslığının obyektiv tədqiqi sübut edir ki, bu tarix bilərəkdən saxtalaşdırılıb. Bu toplumumda əsas rol oynamış türk etnosunun izini itirmək üçün "tatar-monqol" adından tatar sözünü çıxararıb monqol adının saxlaması bu saxtarkarlığa münbit şərait yaradıb. Acınacaqlısı odur ki, bu saxtalaşdırmada müxtəlif türkdilli xalqların alimləri də fəal iştirak ediblər. Məhz bunun nəticəsidir ki, dünya tarixində mühüm izlər qoymuş bu toplumun mirasına uzun müddət heç kim, o cümlədən türk xalqları da sahib durmaq istəməyib.*

*Hazırki Monqolstan dövlətinin dünya siyasətində passiv mövqeyi, inteqrasiyaya meyilli olmaması və tarixin saxtalaşdırlmasına laqeydliyi məsələni daha da mürəkkəbləşdirir. Əksər ölkələrdə şərqşünaslıq elminin inkişaf etməsinə, ərəbşünaslığın, farsşünaslığın, türkşünaslığın inkişaf etməsinə baxmayaraq, monqolistikanın olmaması və ya zəif olması da həqiqətin üzə çıxarılmasına mane olur. Fikrimizcə tarixi obyektivliyin bərpası üçün Monqolstan tarixçılərnin məsələyə obyektiv münasibət bildirməsi olduqca vacibdir.*

*Tarix elminin siyasi elm olduğunu nəzərdən qaçırtmaq olmaz. Tarixən hər bir hökümdarın yanında onun fəaliyyətini qələmə alan tarixçilərin olması, onların yazdıqları əsərlərdə öz hökümdarlarının şəxsiyyətini yüksəltməsi, düşmənlərini aşağılaması bu cür mənbələrin sübyektib olmasının sübut edir. Buna görə də bu cür mənbələrə tənqidi yanaşılması vacibdir.*

*Monqol-tatarlara düşmən mövqeyi ilə seçilən qərbi Avropa, ərəb, rus və sovet mənbəşünaslığı və tarixşünaslığına bu vaxta qədər tənqidi münasibət bəslənilməməsi tarixin saxtalaşdırılmasına gətirib çıxardıb. Bunun nəticəsidir ki, tarix kitablarında onlara qərəzli yanaşma hələ də qalmaqdadır.*

*Müasir dövrdə rus, tatar, qazax və digər xalqların tarixçiləri problemə yeni yanaşma ortaya qoymuş, problemin obyektiv tədqiqi sahəsində alternativ əsərlər yazmışlar. Lakin çox təəssüf ki, Azərbaycan alimləri bu məsələdə gözləmə mövqe tuturlar.*

*Sovet tarixşünaslığında məsələyə mövcud olmuş qərəzli münasibət, rus, erməni, fars tarixçilərinin Azərbaycan xalqının etnogenezi ilə bağlı yanlış mövqeyi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də problemə obyektiv münasibət bəslənməsinə mane olur. Azərbaycan xalqının etnogenezi ilə bağlı erməni saxtalaşdırıcılarının fikirləri və erməni separatizminin mövcud olması bəzi tarixçiləri ehtiyatlı davranmağa, bu toplumu türk etnosundan ayırmağa istiqamətləndirmişdir ki, buna da haqq qazandırmaq olmaz. Çünki Azərbaycan xalqının etnogenezi ilə bağlı alimlərin irəli sürdüyü mövcud konsepsiya erməni saxtakarlığına layiqli cavab verməyə imkan veririr. Belə ki, Azərbaycan xalqı yerli və gəlmə türkdilli tayfaların qaynayıb qarışması nəticəsində formalaşıb. Fikrimizcə bu prosesdə əsas rollardan birini oynamış tatar-monqolların əsasını təşkil etmiş türk tayfalarını nəzərə almamaq, onları bu prosesdən kənarda saxlamaq tarixi təkrar saxtalaşdırmaqdan başqa bir şey deyil.*

*Bu kitabda əsas məqsəd XIII əsrdə Azərbaycana 3 dəfə yürüş etmiş, Hülakülər dövləti kimi möhtəşəm bir dövlət yaratmış, müasir dövrdə nəşr olunan kitablarda monqollar adlandırılan toplumun Azərbaycan tarixində yeri və roluna işıq salmaqdan ibarətdir. Bundan başqa onlara olan düşmən münasibətin səbəblərini aşkara çıxarmaq və tarixin bu səhifəsinə düşmənçilikdən uzaq, yeni yanaşmanı ortaya qoymaqda da kitabın əsas məqsədlərindəndir.*

## Tatar-monqolların tarixdə yeri və rolu

Bəşər tarixində böyük izlər buraxmış, geniş ərazilər fəth edərək dövlətlər yaratmış tatar- monqoların tarixdəki yeri və rolu müxtəlif dövlətlərin siyasətinə uyğun şəkildə saxtalaşdırılıb. Təəssüf ki, bu proses bu gün də davam edir.

Tatar-monqolların tarixdə yeri və rolunu müəyyən etmək üçün ilk öncə əvvəllər tatar-monqol, monqol-tatar, hazırki dərsliklərdə monqollar adlandırılan toplumun əsil, düzgün adının nə olduğu, bunların türk xalqlarına, o cümlədən Azərbaycan xalqına nə dərəcədə bağlı olduğunu üzə çıxarmağa ehtiyac var. Fikrimizcə bu tatar-monqolların tarixinə obyektiv yanaşmanı ortaya qoymağa kömək edə bilər.

Müxtəlif yanaşmalara tənqidi yanaşdıqda aydın olur ki, Çingiz xanın 1206-cı ildə Qaraqorum (bu şəhərin adı da türk mənşəlidir) qurultayında Ali xaqanlığın rəhbəri təyin olunandan sonra 38 milyon kv. km ərazini, başqa sözlə yer kürəsinin quru hissəsinin1/4 -ni və əhalisinin isə 1/3-ni, təqribən 160 milyon nəfəri əhatə edən böyük bir dövlət yaratmış, böyük ərazilər fəth etmiş hərbi qüvvənin mütləq əksəriyyətini monqollar deyil, türk tayfaları təşkil etmiş, onların hamsı ümumi olaraq "Tatar" adlandırılmışdır. Böyük monqol imperiyasını isə Çıngiz xan "Yeke Ulus", "Yeke dövlət" adlandırıb. (56)

Monqolustan əhalisinin sayı 1951-ci ildə 786 869 nəfər, 1960-cı ildə 943 500 nəfər, 1970-ci ildə 1 260 519 nəfər, 1980-ci ildə 1 667 957 nəfər, 1990-cə ildə 2 162 576 nəfər, 2000-ci ildə 2 386 802 nəfər, 2010-cu ildə 2 691 115 nəfər (107.140 nəfəri isə xarici ölkələrin vətəndaşları), 2018-ci ildə 3 090 183 nəfər olmuşdur. Hazırda Monqolustan əhalisinin tərkibində olan türk toplumunun nümayəndələri qazaxlar, tuvalılar, uyğurlar və özbəklərdən ibarətdir. (104)

Əgər yuxarıdakı faktları müqayisə etsək XX əsrin 50-ci illərində Monqolstan əhalisi etnik qruplarla birlikdə heç 1 milyon deyildisə, XIII əsrdə 160 milyonluq dövləti bu kiçik etnik qrurumun yaratmasını düşünmək sadəlövlükdən başqa bir şey deyil.

Tatar-monqolların tarixdə yeri və rolunu müəyyən etmək üçün ilk öncə bunların türk xalqlarına nə dərəcədə bağlı olduğunu araşdırmaq üçün fikrimizcə ilk öncə Böyük monqol imperiyasını yaradıcısı olan Çıngiz xanın hansı xalqa mənsub olduğunu izah etməkdən başlamaq lazımdır.

Çingiz xanın fəaliyyətini tarixi faktlar əsasında araşdıran alimlər qeyd edirlər ki, Çingiz xanın yaratdığı imperiyanın əsasını qoyan 4 tayfa monqol deyil, kiyat, kerey, naymen, merkit adlı türk tayfaları olmuşlar. Çingiz xanın atası Yesugey kiyat tayfasının başçısı olub. Çingiz xana 4 övlad dünyaya gətirən arvadı Börte isə ponirat taryfasına (türk əsilli tayfa) mənsub olub. Çingizxanın dörd övladına da türk adı qoyulub. Bu başqa "xan" titulu monqollarda deyil, türklərdə olub. Həmçinin Çingiz xanın hakimiyyəti dövründə bütün işlər, yazışmalar türk dilində aparılırdı. Xanın ağ keçə üzərində yuxarı qaldırılması və seçki vasitəsilə seçilməsi qədim türk adət-ənənəsində olmuşdur. Bundan başqa,Çingiz xanın imperiyası dövründə buraxılan pul-sikkələrin üzərində olan yazılar türkcə olub.(23)

Tarixi mənbələr sübut edir ki, Çıngiz xanın əvvəlki adı Temurçin olub ki, bu da türk sözü olan Temir, Dəmir sözündəndir. Çıngiz sözü də türk sözü olan Dəniz sözündən əmələ gəlib. Hətta bəzi mənbələrdə Çinin paytaxtı Pekin şəhərinin adının əvvəllər türk mənşəli Xanbalıq olduğu da göstərilir. ( 33,s.213)

Rusiya tarixçisi V.Belinskinin fikirlərinə görə, Çingiz xan əslən Altay dağı ətəklərində yaşayan köçəri türk tayfalarındandır. Tarixçiyə görə, Çingiz xan Çinə yürüş edərkən yolüstü onun ordusuna monqollar da qoşulub. Çingiz xanın türk əsilli olduğunu təsdiqləyən versiyalar çoxdur. Belə ki, Çingiz xanın Şərqə yürüşü zamanı bütün türk tayfaları onun hakimiyyətini qeyri-şərtsiz qəbul edib. Əsasən də, Qazaxıstan ərazisində Çingiz xanın ordusuna yerli tayfalar heç bir təzyiq göstərməyib, heç bir qarşıdurma olmayıb. Əksinə, Çingiz xanın ordusunu yerli tayfalar çox xoş qarşılayıb, hətta digər tayfalar belə Çingiz xanın imperiyasına qoşulub. Çingiz xanın imperiyasına könüllü surətdə ilk daxil olan ərazi Qazaxıstan olub. (27)

Bir sıra mənbələrdə böyük türk sərkərdəsi Əmir Teymurun da Çıngiz xanın nəslindən olması faktlarla sübut olunub. "Əmir Teymurun vəsiyyətləri" kitabında qeyd olunub ki, "Çingiz xanın nəslindən olan, əmir Qaraçar noyan Əmir Teymurun səkkizinci babası hesab edilir. Noyon Çıngiz xanın nəslindən olan şahzədələr idi".(12, s.11.)

Əli Əkbər Vilayəti öz əsərində yazır: **"**Monqol imperiyasının ikinci yaradıcısı Əmir Teymur 1366-cı ildə Səmərqənd yaxınlığında anadan oldu:onun Çingiz xanın nəslindən olan Monqol sultanlarına yaxınlığı var idi."(33,s.15)

Müəllif hətta Osmanlı İmperiyasının tatar-monqolların himayəsi ilə yarandığını da bildirir:"Rum səlcuqları monqollar tərəfindən süquta uğradılıdıqdan sonra, yerli hakimlər və bəylər Çingizin diqqətini cəlb etdilər və onun himayəsi altında onlar kiçik müstəqil dövlətlər yaratmağa həvəsləndirildilər...Bu vəziyyətdən istifadə edərək Səlcuq türklərinin tabeliyindən yaxasını qurtarmağa müvəffəq olan Osman, monqolların himayəsindən bəhrələnərək özünü osmanlıların padşahı adlandırdı və elə bir xanədəan yaratdı ki, h.q.699-cu (1299) ildən h.q. 1341-ci (1923) ilə qədər davam etdi.(33, s.83)

Abbasqulu ağa Bakıxanov yazır: "Bu zaman, ölkələr fatehi Əmir Teymur Kürəkən xüruc etdi...Bir çox tarixçilərin yazdığına görə o, Çingiz xanın böyük əmirlərindən Qaracar noyanın oğul nəvəsi, moğolların Barlas qəbiləsi əmirlərindən Əmir Turağayın oğludur. Hicri 736-cı ( = 1336) ildə Keş nahiyəsində Şəhrsəbzdə anadan olmuşdur. Çox tərəqqi etdi, Əmir Hüseynin damadı olduğundan, Kürəkən deyə şöhrət tapdı."(7,s.5)

Rəşid bəy İsmayılov qeyd edir ki, "axsaq Teymur, xələfləri cəhətdən, fütuhati-cahangiranə meydanında sələfi Çingiz xan kibi bəxtiyar olmadı... Çingizilər, Çingiz xan balaları Orta Asiyada iki əsrə qədər hakim qalmağa müvəffəq olduqları halda, Teymurilər sülaləsi: özlərinə miras qalmış olan müəzzəm bir dövləti anca və ancaq bir əsrə qədər idarə və idamə edə bildilər."(15,s.56-57)

Hidisdanda yaradılmış Böyük Moğol dövlətinin banisi Zahirəddin Məhəmməd Baburun Əmir Teymurun xələflərindən olduğu da mənbələrdə qeyd olunur. (33,s.16)

Müasir rus tarixçiləri iddia edirlər ki, qərb mənbələrində Monqol sözü "N" hərfi olmadan Moğol, Moğul kimi yazılıb. Bu da "böyük" mənasını veririr. Deməli türklərin Hindisdanda yaratdığı Böyük Moğol dövlətinin adı qərb mənbələrində yazılanlara daha çox uyğun gəlir.

Babur 14 fevral 1483-cü ildə Əndicanda anadan olmuşdur. Onun atası, Fərqanə hakimi Ömər Şeyx Mirzəböyük Əmir Teymurun nəticəsi, anası Qutlu(ğ) Nigar xanım isə Çingiz xanın on dördüncü nəsildən törəməsi idi. Babur anadan olanda Ömər Şeyx Mirzə Səmərqəndə məşhur sufi şair Xoca Nəsrəddin Übeydullah Əhrarın yanına gələrək körpəyə ad qoymasını xahiş etmişdir. O, əvvəlcə "Zəhirəddin Məhəmməd" adını təklif etmiş, sonra bir az düşünərək "Bu ad tələffüz baxımında avam dili üçün ağırdır, qoy onlar "Babur Mirzə" desinlər" demişdir. Babur sözü əski türkcədə bəbir, pələng mənasına gəlir... Babur 12 iyun 1494-cü ildə 12 yaşında Fərqanə taxtına çıxır. Həmin dövrdə Orta Asiyada və civarında siyasi mənzərə belə idi: Səmərqənddə Baburun əmisi Sultan Əhməd Mirzə, Hisarda və Bədəxşanda dayısı Sultan Mahmud Mirzə, Monqolustanda babasıYunus xan, Kabildə II Uluğbəy Mirzə, Heratda Hüseyn Bayqara hökm sürürdü. Qızılbaşların başında Şah İsmayıl Xətai, özbəklərin başında Şeybani xan dururdu. Hindistanda isə hər vilayətdə, hətta hər şəhərdə bir mirzə (bu söz əmirzadə sözünün qısaldılmış variantı olub, əsasən, Əmir Teymurun törəmələrinə şamil edilirdi), xan və ya bir racə hakim idi.(35,s.4)

Qeyd etmək lazımdır ki, Teymur Ləngin Ərdəbil şeyxlərinin ocağına böyük hörməti olub və şeyxlərin xahişi ilə çoxlu sayda əsiri azad edib. Ərdəbil şeyxlərinin də Əmir Teymura böyük hörməti var idi. Şah İsmayıl özbək hömkdarı Şeybani xanı məğlub etdikdən sonra onun xanımı, Əmir Teymurun nəticəsi Xanzadə bəyimi və övladını cah-cəlalla, urvatla qardaşı Babur Mirzənin üstünə yola salıb.(12,s.4)

Son illər tatar və qazax alimləri mövzu ilə bağlı yeni faktlar ortaya qoyublar ki, bu da problemin obyektiv araşdırılmasına kömək edir.

Tatar tarixçisi Rafael Hakimov "Tatar necə olmalıdır?" adlı kitabının 9-cu fəslində yazır ki, "bax deyirlər: tatar-monqollar, tatar-monqollar. Bütün tatarlar biz burdayıq, bəs bizim aramızda monqollar hanı? Daha sonra Marko Polo və Rəşid əd-dinin əsərlərinə istinad etməklə maraqlı faktları ortaya çıxarır. Marko Polo yazırdı: "1187-ci ildə tatarlar özlərinə çar seçdilər və onu Çingiz xan adlandırdılar...tatarlar dünyanın hər yerindən, yayıldıqları ölkələrdən gələrək onu özlərinin başçısı kimi tanıdılar".

Rəşid əd-dinin öz səlnaməsində "hazırda monqol adlandırılanları türk tayfası" kimi qeyd edib.

"Qara tatarlar haqqında qısa şərh"adlı Çin salnaməsində qeyd olunur ki, "Qara tatarların dövləti Böyük Monqolstan adlanır". "Monqol-tatarlar haqqında tam şərh" ("Men-da bey-lu", 1221-ci il) adlı digər Çin

salnaməsində yazılıb: “Mən, Xun, şəxsən gördüm ki, onların müvəqqəti imperatoru Mo-xoy hər dəfə özünü “biz, tatarlar” deyə təqdim edirdi. Mo-xoy(Muxəli) Çingiz xanın ən yaxın adamlarından olub, türk cəlairlər tayfasına məxsus idi”. (101)

Araşdırmalar göstərir ki, XIII əsrin əvvələrindən böyük ərazilərə yayılaraq, tarixdə öz izini qoymuş bu toplumun adı müxtəlif dövrlərin mənbə və tarixşünaslığında “Monqol-tatar”, “Tatar-monqol”, “Monqol” və “Moğol” kimi qeyd olunub. Bu adların mənşəyi ilə bağlı tədqiqatlar maraqlı faktları üzə çıxarır. Məsələn, bu problemi saxtalaşdıran sovet tarixşünaslığına diqqətlə nəzər yetirdikdə belə bəzi obyektiv fikirlərə rast gəlinir. Məsələn, “SSRİ tarixi” kitabında qeyd olunur ki, “ruslar tatar tayfalarından biri olan monqol tayfasının adı ilə onları monqol-tatar adlandırmışdı.(65,s.127)

Rus tarixşünaslığında hazırda belə bir fikir də var ki, Rusiya və Avropada XIII-XIV əsrlərdə bütün Monqol imperiyasının qonşuluğunda olan köçəriləri tatarlar adlandırırdılar.

Tatar-monqollara aid uzun illər formalaşmış tarixşünaslıqda qeyd olunur ki, 1227-ci ildə Çingiz xanın ölümü ilə onun yaratdığı böyük dövlət Yuan, Hülakülər, Mavi və Ağ Orda adlı dövlətlərə, o cümlədən Qızıl Orda, XV isə əsrdə Kırım, Həştərxan, Kazan, Noqay və Sibir xanlıqlarına parçalandı. Qızıl Ordanın varisi kimi Böyük Orda qaldı ki, onun da varlığına 1502-ci ildə Kırım xanlığının Bolqaboyu əraziləri tutması ilə son qoyuldu.

Tatar-monqolların fəht etdiyi və dövlətlər yaratdığı ərazilərin heç birində hazırda monqol dilində danışan xalq, etnik qrup olmadığı halda, çoxlu sayda türk dilli xalq və etnik qrupların mövcud olması bir daha sübut edir ki, həmin toplumun əksəriyyəti türk tayfalarından ibarət olub.

“Hunların tarixi”, “Alaş tarixi”, Çingizxanın tarixi”, “Vətən tarixi”, “Qazax dövlətçiliyinin tarixi”, “Sibir xanlığının tarixi” və digər əsərlərin müəllifi olan qazax tarixçisi Kalibek Daniyalov tatar-monqollar haqqında sovet tarixşünaslğından tamamilə fərqli fikirlər ortaya qoyub. O, “Qazaxstanın alternativ tarixi: Bir daha Çingiz xan haqqında” əsərində faktlarla iddia edir ki, bilavasitə Stalinin göstərişi ilə tatarların, o cümlədən Çingiz xanın tarixi bilərəkdən saxtalaşdırılıb. K. Daniyalov qazax xalqının formalaşmasını sovet tarixşünaslığında və hazırki rəsmi dərsliklərdə iddia edildiyi kimi 1456-cı ildə Qazax xanlığının yaranmasından deyil, ondan qat-qat əvvələ hunların törəməsi olan saklara aid edir. Tarixçinin fikrincə çinlilər qazaxları “qazax” deyil “xasak” adlandırırlar. Bu da “əsil sak” deməkdir. O qeyd edir ki, 2500 il qazaxların əcdadları “sak”, “hun”, “monqol” (min qol (ordu)), “noqay”, “qazax” adları ilə adlandırılmışdır. K. Daniyalov monqol adının Zaxir-əd-Din Baburun yaratdığı, 150 il ömür sürmüş imperiyanın “Böyük moğol dövləti” adlanması ilə meydana gəldiyini iddia edir.

K. Daniyalov qazax xalqının formalaşmasını aşağıdakı mərhələlərə ayrır: 1.Sak dövrü. 2.Hun dövrü. 3.Türk xaqanlığı dövrü. 4.Alaş dövləti dövrü (Şərqi-türk xaqanlığı). 5.Çingiz xan dövləti dövrü. 6.Cuci ulusu dövrü-Qızıl Orda. 7.Qazax xanlığı dövrü. 8.Müstəmləkə dövrü. 9.Qazaxstan Respublikası dövrü. (59)

O, öz tədqiqatında yüzə yaxın ilkin mənbədən istifadə edib ki, bunların da bir hissəsi aşağıdakılardır:

1. **1240-cı ildə Pekində nəşr olunmuş “Çingiz xanın qəhrəmanlıq salnaməsi”.**
   Bu epos avropa və rus alimlərinin fikrincə qədim nayman əlifbası ilə və demək olar ki, qədim qazax dilində yazılıb. Avropa alimləri qədim nayman dilində yazılmış kitabı latın əlifbası ilə dildən dilə tərcümə etmədən yazdıqlarından onu saxtalaşdırmaq mümkün olmayıb. Lakin Stalinin göstərişi ilə Çingiz xanın mənşəyinin türk deyil, monqol olmasını əsaslandırmaq üçün sovet tarixçisi S.A.Kozin əsəri böyük yanlışlıqlarla tərcümə edərək adını da saxtalaşdıraraq “ Monqolların söz xəzinəsi” adlandırmışdır. Monqol alimləri də Kozinin saxtalaşdırılmış tərcüməsinə əsaslanaraq Çingiz xanın tarixinə aid 800-ə qədər əsər nəşr ediblər. Lakin teksdən aydın olur ki, əsərdəki sözlərin 60%-i müasir qazax dilində mövcuddur, qədim türk dilində olan 40% sözləri isə asanlıqla qazax dilinə çevirmək olur. K.Daniyalov S.A.Kozin tərcüməsini Avropa alimlərinin latın əlifbası ilə yazılmış tərcuməsi ilə müqayisə etməklə əsərin saxtalaşdırıldığını üzə çıxarıb.

2. **Çingiz xanın və onun dövlətinə aid ilkin mənbə olan Rəşid-əd-Dinin 1305-ci ildə nəşr olunmuş “Came -ət-Təvarix” əsəri.**

Hülakilər dövlətində Qazan xanın vəziri olmuş məşhur Azərbaycan alimi Nəsrəddinin Tusinin nəvəsi Fəzlullah Rəşidəddin tərəfindən yazılmış “Came ət- təvarix” (Tarixlər toplusu) əsəri qiymətli mənbədir. Əsərdə Hülakü xandan

Qazan xanın hakimiyyətinin sonuna kimi olan dövr müfəssəl şərh olunub. "Came ət-təvarix" dünyanın bir sıra ölkələrinin tarixini də əhatə edir. Əsər mühüm qiymətli sənəd olması onun ilkin mənbələr əsasında yazılmasıdır. Rəsidəddin bütün Şərq dünyasında ilkin mənbələrə tənqidi yanaşaraq böyük tarixi əsər yaratmış ilk tarixçidir.

Bu əsərin rus dilində adı "Səlnamələr toplumu" kimi tərcümə olunub. Onu həmçinin "Türklərin səlnaməsi" də adlandırırlar. Qəribədir ki, Qazaxstanın tarixi yazan alimlər heç bir ilk mənbələr, o cümlədədn bu salnamə və "Çingiz xanın qəhrəmanlıq səlnaməsi"ndən istifadə etməyiblər. (59)

Rəşid-əd-Dinin Cingiz xanı monqol və ya çın adlandırması ilə razılaşmır. O, sübut edir ki, Çingiz xanın mənsub olduğu "Kiyat" adlı köçəri tayfası nəsli türk tayfası olub. Rəşid-əd-Dinin Cingiz xanın şəcərəsini də öz əsərində göstərib: Dotum-manan, Kaydu xan, Baysunqur, Tumbinə xan, Kabul xan, Bartan, Esikey, Çingizxan. (84,s.18)

3. **Çingiz xanın müasiri olmuş və onun böyük ordusunu görmüş İbn-Əl-Əsirin səlnaməsi.** Səlnamədə monqollar barədə deyil, tatarlar, naymanlar, cəlairlər barədə bəhs olunur.

4. **V.Q.Tizenqauzenin 1840-cı ildə Sank-Peterburqda nəşr olunmuş "Qızıl Orda tarixinə aid materiallar külliyyatı".** Bu əsəri müəllif qraf Stroqanovun maliyyə yardımı ilə Misirə səyahət zamanı topladığı materiallar əsasında yazıb. Əsərdə Qızıl Ordadadakı Misir səfirlərinin, Misir və ərəb səyyahlarının məlumatları əz əksini tapıb.

5. **V.P.Yudin tərəfindən 1992-ci ildə rus dilinə tərcümə edilərək Alma-ata şəhərində nəşr olunmuş XV əsrə aid "Utemiş-Xadci Çingiz-name" əsəri.**

6. **Müasir dövrdə qədim türk dilindən B.Abilqasımovun tərcümə etdiyi, 1664-cü ildə Xivədə nəşr olunmuş Əbilqazinin " Türk şəcərəsi" əsəri.**

7. **Lion şəhərində 1247-ci ildə nəşr olunmuş Plano Karpini "Şərq ölkələrinə səyahət" əsəri.**

8. **Parisdə 1255-ci ildə nəşr olunmuş Gilom de Rebrukun "Şərq ölkələrinə1253-cü ildə səyahət" əsəri.**

9. **1996-cı ildə rus dilinə tərcümə edilmiş, "Bəşəriyyətin səlnaməsi". Böyük ensklopediya (Ümumdünya tarixi) kitabı.**

Bundan başqa əvvəllər gizli saxlanılan, lakin müasir dövrdə tədqiqatçıların üzünə açılmış Qızıl Orda ilə Vatikan arasında türk dilində aparılmış yazışmalar da bu sahədə mühüm əhəmiyyət kəsb edir. (59)

Kalibek Daniyalov

Kalibek Daniyalo

Səfəvilərin mənşəyi ilə bağlı bir fakt da

Bir maraqlı fakta diqqət edək. Monqol adlandırılan toplumun yaratdığı dövlətlərin hökümdarlarının və paytaxtlarının adlarına diqqət yetirsək, bu adların mütləq əksəriyyətinin türk adları olduğu aşkara çıxar. Fikrimizi əsaslandırmaq üçün monqol-tatarların yaratdığı aşağıdakı dövlətlərin hökümdarlarının və paytaxtlarının adlarını gözdən keçirək:

**Çingiz xanın yaratdığı dövlətin xaqanları:**

- Çingiz xan(Timurçin)
- Oqtay Qaan ibn Çingiz
- Turakiya xatun (onun zövcəsi)
- Kiyik xan ibn Oqtay
- Mənku xan ibn Tuli ibn Çingiz
- Qibla Qaan ibn Tuli ( 34, s.28)

Yılmaz Öztünanın 1989-cu ildə Ankarada nəşr olunmuş "İsalam dövlətləri. Dövlətlər və xanədanlar" əsərində Çingiz xanın yaratdığı dövlətin xaqanları aşağıdakı kimi göstərilib:

- Çingiz
- Ugedey
- Kiyik
- Munke
- Xubilay( 34,s.132)

**Qızıl Orda dövləti (XII yüzilin I yarısı-XV yüzilin sonu)** - Ərazisi Qərbdə Dünaydan Fin körfəzinədək, şərqdə İrtış hövzəsindən Ob çayının aşağı axarına, cənubda Qara dəniz, Xəzər dənizi, Aral dənizi və Balxaş gölünə, şimalda Novqoroda qədər. Paytaxtı Saray-Batu, Saray-Bərkə. Hökümdarlar:

- Batı (1227-1255)
- Sərtək (1255-1256)
- Ulaqçı (1256-1257)
- Bərkə (1257-1267)
- Məngü (1267-1280)
- Tülə-Məngü (1280-1287)
- Tülə-Bükə (1287-1290)
- Qiyasəddin Toktü (1290-1312)
- Özbək (1312-1341)
- Tini bəy (1341)
- Canı bəy (1341-1357)
- Ara çəkişmələri dövrü (1357-1380)
- Toxtamış (1376-1395)...
- Əhməd (1465-1481) (32, s.157)

**Hülakülər (Elxanilər) dövləti (1256-1357) -** Ərazisi Azərbaycan, İran, indiki Ermənistan, Gürcüstan və b. torpaqlar. Paytaxtı-Marağa, Təbriz, Sultaniyə. Hökümdarlar:

- Hülakü (1256-1265)
- Abaqa (1265-1282)
- Əhməd Təkyudar (1282-1284)
- Arqun (1284-1291)
- Keyxatu (1291-1295)
- Baydu (1295)
- Mahmud Qazan (1295-1304)
- Məhəmməd Xudabəndə Ölcaytu (1304-1316)
- Əbu Səid (1316-1335)
- Arpa (1335-1336)
- Musa (1336)
- Rəqabət aparan xanlar (1336-1353)-Cəlairlər (1341-1431), Müzəffərilər (1314-1393) və başqaları arasında bölüşdürüldü. (32, s.150)

Hülakülər dövlətinin son dövrnünü tədqiqat etmiş V.Piriyev bu cədvəli aşağıdakı kimi davam etdirib:

- Məhəmməd xan (25/VII-1336– 17/VII- 1338)
- Yalançı Teymurtaş (Qaracəri) 17/VII-1338-1339, II rüb
- Sati bəy (1339, II rüb -1340, I rüb)
- Süleyman xan (1340, I rüb -1344, II rüb
- Ənuşirəvan-e Adil (1344, III rüb -1355)
- Məlik Əşrəf -Adil hökmdar‖ titulu ilə sikkə zərb etdirərək tam müstəqilliyə səy göstərir. Lakin o özünü padşah elan etmir. (1355-1356)
- Həsən xan ( 1356-1357)
- Bərdi bəy 1357 (iki ay)
- Əxicuq və Əşrəfilər (1357 axırları -X- 1358)
- Şeyx Üveys (X/1358-1359)
- Qış Əxicuq və Əşrəfilər (1359, qış - IX- 1359)
- Məhəmməd Müzəffər Yəzdi ( IX - 1359 (bir həftə)

- Şeyx Üveys Cəlairi (IX – 1359 -1374) (25, s.85)

**Böyük moğol dövləti (1526-1858)** - (Hindistan, paytaxtı Dehli). Hökümdarlar:

- Babur Zahirəddin Məhəmməd (1526-1530)
- Hümayun (1530-1539, 1555-1556)
- Əkbər (1556-1605)
- Cahangir (1605-1627)
- Şah Cahan (1627-1658)
- Aləmgir Övrəngiz (1658-1707)
- Bahadır şah (1707-1712)
- Cahandar şah (1712-1713)
- Fərrux Siyyar (1713-1719)
- Məhəmməd şah (1719-1748)
- Əhməd şah (1748-1754)
- II Aləmgir (1754-1759)
- II Şah Aləm (1759-1806)
- II Əkbər (1806-1837)
- II Bahadır şah (1837-1858) (32, s.194)

**Kırım xanlığı (1428-1792)** – (Krım yarımadası, paytaxtı Solxat, Krım)

Hökümdarlar:

- Hacı Girey (1428-1456,1456-1466)
- Nur Dövlət Girey (1466,1474-1475,1476-1478)
- I Menqli-Girey (1466-1474,1475-1476, 1478-1514)
- I Məhəmməd Girey (1514-1523)
- I Qazi Girey (1523-1524)
- I Səadət Girey (1524-1532)
- I İslam Girey (1532)
- I Sahib Girey (1532-1551)
- I Dövlət Girey (1551-1577) və onların nəsillərində olan daha 37 nəfər hakimiyyətdə olmuş. Onların arasında I Fət Girey, Toxtamış Girey, I Salamat Girey, I Bahadır Girey, Adil Girey, I Səlim Girey, Murad Girey, I Qaplan Girey, Arslan Girey, Həlim Girey, Krım Girey, Maqsud Girey kimi adlar var. Axırıncı hökümdarlar. Şahin Girey (1777-1783, 1784-1785), II Bahadır Gireyin (1783-1784) dövründə, 1783-cü ildə Krım Rusiya tərəfindən işğal olunub. (32, s.196-197)

**Sibiri idarə edənlər**

**Şibanın ulusu**

Hökümdarlar:

- Şiban- sultan (1243-cü ildən)
- Bahadur -sultan (1266-1280)
- Cuci-buğa-sultan (1266-1280)
- Badakul sultan
- Minq-Timur xan (1359-cu ilə qədər)
- Pulad-Timur xan (1359-1367)
- İbrahim oğlan və Ərəb şah ulusun hissələrinin həmhökümdarları (1367-ci ildən)
- Əli bəy xan (1367-1375)
- Xaqanbəy xan (1375-1380)
- Dövlət-Şeyx-sultan (1382-ci ildən sonra)

**Özbək xanlığı**

Hökümdarlar:

- Hacı Məhəmməd xan (1420-1423)
- Barak xan (1423-1428)
- Cumaduk xan bir hissəsini idarə edib (14225-1428)
- Xızır xan (1428)
- Məhəmməd xoca (1428-1430)
- Əbdülxeyir xan (1428-1464)

**Sibir xanlığı (1465-1607)** (Paytaxtı-Çimqi-Tura, Tömən (Hazırda Tümen), Qaşlıq)

Hökümdarlar:

- İbak xan (1465-1495)
- Mamuk xan (1496-1502)
- Aqalak xan (1502-1530)
- Kuluk xan, Murtaza Əli xan (1563-1565)
- Əhməd-Qirey-xan (1565-1569)
- Kuçum -xan(1569-1598)
- Əli xan (1598-1616) 1607-ci ildən nominal hakim, İşim, Xoyrlyuka xanın kürəkəni (1616-1624)
- Ablay Qirey (1628-1631)
- Küçük xan.

**İsker yurdu**

Hökümdarlar:

- Məhəmməd Taybuğa- Taybuğa knyazı (1496-1530)
- Qasım - Taybuğa knyazı (1530-1550)
- Bəy Bulat- Taybuğa knyazı (1530-1550), Ediqeylə birlikdə həm hökümdar
- Ediqey- Taybuğa knyazı (1530-1563)
- Seyid Əhməd- Taybuğa knyazı (1583-1588)

**Sibirin -** İnzibati və hərbi mərkəz olan şəhərlər- Qızıl-Tura (hazırda Ust-İşim) , Qasım-Tura, Yavlu-Tura (Hazırda Yalutorovski), Tontur (Hazırda Rusiya Federasiyasının Novosibirski vilayətindəki Voznisenki kəndi) və s.(45,s.24-29, 97,s.32-35)

**Kazan xanlığı (1438-1552) (paytaxtı Kazan, digər əsas şəhərləri-Ələt, Arça, Bolqar, Cuketau, Kaşan, İskə-Kazan, Laeş, Tetyuşi)** Hökümdarlar:

- Ulu Məhəmməd (Böyük) xan (1438-1445)- Qızıl ordu xanı İçkilə Həsən -oğlanın oğlu
- Mahmud xan (1445-1466)- Ulu Məhəmməd xanın oğlu
- Xəlil xan (1466-1467) - Mahmud xanın oğlu
- İbrahim xan (1467-1479)- Mahmud xanın oğlu
- İlham xan (1479-1484,1485-1487)-İbrahim xanın oğlu
- Məhəmməd Əmin xan (1484-1485,1487-1496,1502-1518) -İbrahim xanın oğlu
- Mamuk (Tümenli) xan (1496-1497)
- Əbdül Lətif xan(1497-1502)-İbrahim xanın oğlu
- Şah Əli xan (1519-1521, 1546,1551-1552)-Qasımlı Çeyx Əli Sultanının oğlu
- Sahib Girey xan (1521-1524)- Krım xanı Mengi-Girey xanın oğlu
- Safa-Girey xan (1524-1531, 1536-1546, 1546-1549)-Krım xanı Səadət-Girey xanın oğlu
- Can- Əli xan (1532-1535)-Şeyx-Əliyar sultanın oğlu
- Yatmış Girey xan (1549-1551)- Safa-Girey xanın oğlu
- Yadıgar-Məhəmməd xan (1552) - Həştərxan xanı Qasımın oğlu
- Əli -Əkrəm xan ( Noqay sülaləsi) (1553-1556)

1552-ci ildə IV İvanın qoşunları tərəfindən işğal olunaraq çar Rusiyasının tərkibinə qatılıb.(88,89)

**Həştərxan xanlığı (1459-1556)** (Paytaxtı**-** Hacıtərxan)-Ən kiçik xanlıq olub. İlk hökümdarı-Mahmud, axırıncı hökümdarı Dərviş Əli. 1461-ci ildə Mahmud xanın oğlu Qasım xan xanlığın başçısı olub. 1521-ci ildə Hüseyn xan, 1534-cü ildə Əbdül Rəhmət xan hökümranlıq edib. 1547-ci ildə Kırım xanlığının və Türkiyənin tətəfdarı olan Yamqurçə hakimiyyətə gətirilib.(100)

Bu siyahıya Uyğur və Orta Asiya ərazilərində yaradılmış dövlətlərin, onların hökümdarlarının və paytaxtlarının adlarını da əlavə etsək daha maraqlı faktlara rast gələ bilərik.

Azərbaycanın bəzi tarixçiləri tatar-monqol söz birləşməsindən tatar sözünü sildikdən sonra bu toplumun sərkərdə və hökümdarlar içərisində monqol adlarının axtarışına girişsələr də səyləri boşa çıxmışdı. Onlar tatar-monqolların Azərbaycana ikinci yürüşü zamanı qoşuna rəhbərlik etmiş Cormoqonun adından başqa digər ada rast gəlməmişlər. Bu da dəryada damladan başqa bir şey deyil. Bu adın da monqol və ya türk adı olması sual altındadır.

Yuxarıda qeyd olunan hökümdarların və paytaxtların adlarının türk və islam mənşəyli olması bir daha sübut edir ki, monqollar adlandırılan toplumun mütləq əksəriyyəti türklər olmuşlar.

**Qərbi Avropa, ərəb, fars, rus və sovet mənbələrində tatar-monqollara düşmən münasibətin səbəbləri**

Qərbi Avropa, ərəb, fars rus və sovet mənbələrində tatar-monqolların tarixi birtərəfli tədqiq edilərək, qəsdən saxtalaşdırılıb. Bu mənbələr əsasında yazılmış əsərlər də reallığı əks etdirmir.

XIII-XIV əsrlərə aid ərəb mənbələrində bu toplum tatarlar adlandırılır və onlara qatı düşmən mövqedən yanaşılır. Fikrimizcə ərəb mənbələrinin tatar-monqollara düşmən mövqedən yanaşmasının əsas səbəbi tatar-monqolların xilafətə qarşı vuruşması və 1258-ci ildə Bağdadı tutaraq 500 ildən artıq höküm sürən Abbasilər sülaləsinin hakimiyyətinə son qoymasıdır. Faktlara müraciət edək.

Abbasilər sülaləsinin hakimiyyətinə son qoymasında Nəsrəddin Tusininin böyük rolu olmuşdur. Hülakü xan əvvəlcə Qüstəntəniyyəyə (indiki İstambul) getmək fikrində imiş. Tusi onu bu fikrindən döndərərək Bağdada, Abbasilər xilafətinə son qoymağa təhrik edir. Hülaku xanı müşaiət edən münəccimlərdən Hüsaməddin, Hülaku Bağdada gedərsə, peyğənbərin vəsisi, yer üzərində allahın kölgəsi hesab edilən xəlifəyə əl qaldırarsa, rəmlin göstərdiyinə görə, böyük fəlakətlər baş verəcəyini deyir. O bildirir ki, Bağdada hücum edildiyi təqdirdə altı fəlakət baş verəcək: birinci - bütün atlar ölüb, əsgərlər xəstələnəcək; ikinci - günəş tutulacaq; üçüncü-yağış bir daha yağmayacaq; dördüncü-səmum yeli əsəcək, dünya zəlzələdən dağılıb viran olacaq; beşinci- yerdə ot bitməyəcək; altıncı- böyük padşah (yəni Hülaku) öləcək.

Hülaku sonra Nəsrəddini çağırıb onu sorğu-suala tutur. Nəsrəddin deyir: İndiyə qədər nə qədər xəlifələr ölüb və öldürülüb, heç bir fəlakət baş verməmişdir. Abbasilərə gəldikdə isə demək lazımdır ki, Tahir, Məmunun əmri ilə Xorasandan gəlib onun qardaşını, Məhəmməd Əlini öldürdü, heç bir şey olmadı. Mütəvəkkilini oğlu əmirlərlə əlbir olub öldürdü, Müntəsir və Mötəsiri də əsirlər və qullar öldürdülər, bundan əlavə, bir çox xəlifələr də öldürülmüş, lakin dünyada heç bir fəlakət baş verməmişdir.

Bundan sonra Hülaku Bağdad üzərinə hücuma keçir və altı yüz əlli altıncı hicri-qəməridə (1258, fevral) Bağdadı alır.

Moğol hökümdarları, o cümlədən Hülaku xan da fanatik bir adam idi. Bağdadı almasına baxmayaraq, xəlifə Mötəsimi öldürməkdə tərəddüd edir, münəccim Hüsaməddinin dediklərinin doğru ola biləcəyindən qorxurdu. Hüsaməddin Hülakunun gün tutulmasından çox qorxduğunu bilib təkrar edirdi ki, xəlifə öldürülsə gün tutulacaq, dünya zülmətə bürünəcək, kainat məhv olacaqdır.

Hülaku bu barədə Tusinin fikrini soruşduqda o deyir: Zəkəriyyə və Yəhya peyğənbəri öldürüblər, heç bir tutulma-filan baş verməyibdir, münəccimlərdən Hüsaməddinin dedikləri də boş sözdür. Ehtiyat üçün əmr ediniz xəlifəni bir keçəyə bürüyüb yavaş-yavaş əzişdirsinlər, gün tutulmağa başlasa, açib buraxarlar. Hülaku belə də əmr edir. Bir az keçməmiş xəlifə keçədə boğulub ölür, nə gün tutulur, nə dünya dağılır, beləcə Abbasi xilafətinə son qoyulur.

Bu hadisə Hülakunun gözündə Tusinin hörmətini daha da artırır və nəhayət, Tusi özünün çoxdan arzuladığı məhşur Marağa rəsədxanasının tikilməsinə lazım olan bütün vəsaiti Hülakudan alır. (20,s.8-10)

Belə bir fikir var ki, qərbi Avropa dövlətlərinin müəyyən mərhələlərdə ərəb xilafətinə qarşı tatar-monqollarla yaxınlaşması da ərəb tarixçilərinin onlara düşmən münasibət bəsləməsinə səbəb olmuşdu. Lakin qərbi Avropa ölkələrinin tatar-monqollarla müəyyən mərhələlərdə yaxınlaşmağa cəhdlər etmələri tək ərəb xilafətinə qarşı hər hansı birlik yaratmaqdan ibarət deyildi. Papanın əsas məqsədi Batı xanın Polşa, Moraviya, Sileziya və başqa qərbi Avropa torpaqlarını tutduqdan sonra bərk təşviş və qorxuya düşərək tatar-monqolları xristianlığın katolizm məhzəbinə etiqat etməyə dəvət etmək idi. Bu cəhdlər alınmadıqdan sonra qərb ölkələri də tatar-monqollara düşmən münasibət bəsləməyə başladılar ki, bu da qərb mənbələrində özünü açıq aydın göstərir.

Qərbi Avropa ölkələri tatar-monqollarla əlaqələr yaratmaq üçün tez-tez öz elçilərini onların paytaxtına göndərirdi. Məsələn, 1244-cü ildə Papa IV İnokenti Monqolstana iki dini nümayəndə heyəti göndərmişdi. Bu heyətlərin birinin başçısı Cohanes de-Plano Karpino 1265-ci ildə Çingiz xanın oğlu Oqtay Qaanın (Xaqan) övladı

Kiyik xanın Qurultay məclisi, yaxud “Seçki məclisi” keçirilən vaxt ora çatıb və həmin məclisdə iştirak edib. Bundan başqa Fransa kralı IX Lui də Aralıq dənizi sahillərində müsəlmanlara qarşı Monqol xanları ilə dostluq əlaqələri yaratmaq məqsədilə səfirləri ora ezam etmişdi. Bu səfirlərdən Kiyum de-Rebrukius adlı birisi Monqolstanın Qaraqorum şəhərinə varid oldu, Çingiz xanın nəvəsi və Kiyik xanın canişini Mənku Qaanın (Xaqan) xidmətinə yetişmişdi. (33,s.12)

IV İnnokenti özünun təcrübəli elçisi Covanni Polo Karpini vasitəsilə “Çara və tartar xalqına” müraciət adlı sənədi onlara göndərmişdi. Sənəddə Papa xristian dünyasının rəhbəri kimi çıxış edərək tatar-monqolları gələcəkdə qərbi Avropaya, xristian torpaqlarına yürüşlərdən çəkindirməyə çalışır, onları allahın qəzəbinə tuş gələcəkləri ilə qorxudaraq, xristian dinin qəbul etməyə dəvət edir.Qeyd etmək lazımdır ki, Batı xan Bolqa sahillərində Papanın elçilərindən sənədi qəbul etməyərək, onları Böyük xaqan Kiyik xanın hüzuruna göndərmişdi.

1247-ci ilin payızında papanın elçiləri geri qayıdaraq Kiyik xanın cavab məktubunu və səfər haqqında hesabatı IV İnnokendiyə təqdim etmişdir. Bu sənədlər uzun müddət tatar-monqollar və şərqi xalqları haqqında qərbi Avropada əsas mənbə hesab olunmuş və bu gün də elmi əhəmiyyətini itirməmişdir. Sənəddə Covanni Polo Karpininin ona tapşırılmış kəşfiyyat xarakterli məlumatları, tatar-monqolların silahlı qüvvələri, onların taktikası, müharibə aparma bacarığı və s. haqqında məlumatlar geniş yer tutur. Lakin səfirin qarşısında qoyulmuş ikinci missiya, tatar-monqolları xristianlıq dininə etiqada dəvət etmək məsələsi uğursuzluqla nəticələnmişdir.

Papanın elçisinə Çingiz xanın nəvəsi Kiyik xanın cavab məktubu 1920-ci ildə Vatikanın arxivində aşkar edilib və fransız tədqiqatçısı P.Pelo tərəfindən tərcümə və izahatlarla dərc edilib. Kiyik xanın cavab məktubu 112-nin 20 sm ölçüsündə bir-birinə qırımızı rəgli yapışqanla yapışıdırlmış iki səhifədən ibarətdir. Məktub fars dilində yazılsa da şərqşünas alim V.V. Bartoldun fikrincə “...o qədər savadsız yazılmışıdr ki, bu yazı müəlliflərinin ana dilinin fars dili olması mümkün deyildi”. Məktubun başlığında “ Böyük ulusun və kainatın xanı” sözü türk dilində yazılmış, mətndə də çoxlu türk sözlərindən istifadə olunmuşdur. Tədqiqatçıların fikrincə məktub türk mənşəli Orta Asiya tacirləri tərəfindən yazılmışdır. Onlar çalışmışlar ki, məktubu o zaman diplomatik və ədəbi dil sayılan fars dilində yazsınlar.

Kiyik xanın cavab məktubunda Papa və Krala Çingiz xan və onun sələflərinin “ Allahın gücü ilə gün çıxandan, gün batana kimi olan bütün torpaqlara” sahib olduqlarını qəbul etdiklərini bəyan etmək üçün şəxsən onun sarayına gəlməsini tələb edir. Beləliklə katolok kilsəsinin dünya ağalığı idiası digər universal daha güclü doktirina ilə üz-üzə gəldi. Kiyik xanın cavab məktubu qısa olaraq aşağıdakılardan ibarətdir.

**Böyük Kiyik xanın Roma papası IV İnnokendiyə fərmanı**

**1246-cı il.**

Əbədi göylərin gücü ilə, bizim böyük ulusun və kainatın xanının

Əmri

Bu əmr böyük papaya ona görə göndərilir ki, o bunu bilsin və başa düşsün.

Sizi bizə etiqad göstərməmiz haqqında xahiş göndərmisiniz. Əgər siz böyük papa olaraq öz sözlərinizlə çıxış edirsinizsə, onda bir qədər bizim tərəfimizə də nəzər salın ki, eyni vaxtda bizim Yasamızın hər əmrində sizi qulaq asmağa məcbur edirdik.

Bir də. Siz deyirsiz ki, əgər mən xristianlığı qəbul etsəm, bu yaxşı olar; sən bizə xahiş göndərməklə ağıllı hərəkət etdin, lakin biz sənin bu xahişini başa düşmədik.

Bir də. Siz mənə bu çür sözlər göndərmisiniz: “Siz Majar (venqerlər) və Kristian (xristian) bütün vilayətini tutmusunuz.” Bizə deyin, burada nə səhv var? Bir də sənin bu sözlərini də başa düşmədik ki, “hər ikisinə, Çingiz xan və Xaqana Allahın əmrinə tabe olmağa çağırdıq...”

Sən bilirsən ki, Allah günahları bağışlayır, özünün mərhəməti ilə gühakarları əhf edir.

Allahın gücü ilə bütün torpaqlar, gün çıxandan gün batana kimi bizə qismət olub. Allahın əmrindən kənarda heç kim heç nə edə bilməz. İndi siz səmimi qəlbdən deməlisiniz: “ Biz sizin təbəniz oluruq və bütün əmlakımızı sizə veririk. Sən özün, kral başda olmaqla, heç bir istisna olmadan bütün hamınız, bizə xidmət göstərməyə və itaət

etməyə keçirisiniz. Bu gündən biz sizi himayəmizə keçmiş hesab edirik. Əgər siz Allahın əmrinə tabe olmasanız və bizim əmrlərimizə müqavimət göstərsəniz bizim düşmənimiz olacaqsınız.

Bax bunları lazım idi ki, biləsiniz. Əgər siz ayrı cür hərəkət etsəniz, biz bilmirik ki, nə olacaq? Yalnız Allah bunu bilir. (56,83, s.220-221)

Qeyd olunan faktlardan və digər sənəddən belə nəticə çıxarmaq olar, qərbi Avropa mənbələrində tatar-monqollara düşmən münasibətin əsasının papa ilə olan ziddiyyətlər təşkil edib.

Ərəb müəlliflərindən olan İbn Əl-Əsirin yazdığı 12 cildlik "Əl-Kamil Fi-T-tarix" (Mükəmməl tarix") kitabında tatar-monqollara qarşı düşmənçilik özünü açıq aydın göstərir. İbn Əl-Əsirin kitabında tatarlar əleyhinə olan faktlar müxtəlif dillərə, o cümlədən Azərbaycan dilinə tərcümə edilərək uzun illər təbliğ olunub. Çox qəribədir ki, həmin əsərə müraciət edən müəlliflər buradakı faktlardan tatarlar əleyhinə istifadə etdikləri halda, nədənsə digər maraq doğura biləcək ciddi faktları nəzərdən qaçırıblar. Məsələn, İbn Əl-Əsir kitabın "Tatarların Marağanı alması haqqında" adlı bölümündə yazır: " Marağanı qoruyacaq bir hakimi yox idi. Çünki onun hakimi Rəvanduz *(Rəzvənduz (Rumu Dej) qalası-Marağa hakimi Sülafi Xatunun (Atabəy Özbəyin gəlini) iqamətgahı)* qalasında oturan bir arvad idi.

Peyğənbər, allah ona rəhmət eləsin və ona salam olsun,- demişdir ki, "Bir qovumun hakimi arvad olsa, o qovuma nicat yoxdur". ( 6, s.142)

Əsərdə olan bu cür faktlar müasir dövrdə dəbdə olan insan haqları, gender bərabəliyi ilə ziddiyyət təşkil etdiyindən müəlliflər onları görməməzliyə vurublar. Amma hazırda tatarların tarixi haqlarını qoruyan güclü dövlətlər olmadığına görə onlara qarşı olan faktlardan gen-bol istifadə ediblər. Fikrimizcə bu həmin müəlliflərin məsələlərə sübyektiv yanaşdığını sübut edir.

Digər bir mənbədə olan fakta nəzər salaq. Nizam-əl-mülk "Siyasətnamə" əsərində yazır: "Bir gün Mötəsim içki məclisindən durub otaqların birinə getdi. Bir müddət orada qaldıqdan sonra gəlib şərab içdi. Sonra yenə də durub başqa bir otağa getdi. Yenə də gəlib şərab içdi və üçüncü otağa getdi. Sonra hamama gedib qüsl etdi və iki rükət namaz qıldıqdan sonra məclisə gəlib Qazi Yəhyadan soruşdu: "Bilirsənmi mən bu namazı nə üçün qıldım?". Dedi: " Yox bilmirəm". Dedi: "Əziz və uca allahın bu gün mənə mərhəmət etdiyi nemətə qarşı qılınan namazdır. Bu üç saatda mən üç qızın qızlığını aldım. Bu qızlardan üçü də mənim üç düşmənimin qızları idi; biri Rum padşahının, digəri Babəkin və üçüncüsü atəşpərəst Məzyarın qızı idi". Bu faktı Yaqut Həməvi "Möcüz-əl-üdəba" adlı əsərində bir qədər başqa şəkildə qeyd edir. (19, s.122-123)

Yuxarıdakı fakt xəlifə Mötəsimin necə müsəlman olduğunu, xilafətin isə hansı vəzyyətdə olduğunu göstərir. Lakin tarixçilər bu cür faktları nəzərdən qaçıraraq ərəb mənbələrinə istinadla xilafətə qarşı mübarizə aparmış xürrəmilərə və tatar-monqollara qarşı qərəzli mövqe tutmaları saxtakarlıq olmaqla yanaşı, azərbaycançılıq ideyalarına da ziddir.

Nəfisi Səid "Azərbaycan qəhrəmanı Babək Xürrəmid"adlı kitabında qeyd edir ki, ərəb və fars kitablarında onların məsləki haqqında yazılanlar da qərəz və böhtan xarakteri daşıyır. (19,s.8)

Fikrimizcə bu fikir qərbi Avropa, rus, sovet tarixçilərinin tatar-monqollara aid yazılmış əsərlərinə də aiddir.

Rus və sovet tarixşünaslığında tatar-monqollara düşmən münasibət özünü açıq aydın göstərir. Tatar-monqollara aid sovet tarixçilərindən İ.Berezi, B.Y,Vladimirsov, B.D.Qrekov, V.L.Yeqorov, M.A.Usmanov, A.İ.Falina, İ.P.Petruşevski, E.A.Poxomov və başqalatı kitab və məqalələr yazmışlar. (48, 52, 55, 60, 67, 77, 80, 95 və s.)

Rus və sovet tarixşünaslığında tatar-monqollar rus xalqının və Rus imperiyasına daxil olan xalqların qəddar, qatı düşməni kimi qələmə verilir.

Sovet dövründə nəşr olunmuş tarix kitablarında qeyd olunurdu ki, "Qızıl Orda həm rus, həm də Azərbaycan xalqlarının ümumi düşməni idi." (1,s.216) Bu məsələ Rusiya tarixşünaslığında hazırkı dövrüdə də davam etməkdədir. Rusların "vaxtsız qonaq tatardan da pisdir" atalar məsəli də tatar-monqollara olan düşmən münasibətin nəticəsində meydana gəlmişdi.

Çar Rusiyası tarixşünaslığında tatarlara düşmən münasibət IV İvan Qroznı vaxtından, sovet tarixşünaslığında isə XX-əsrin 30-cu illərindən güclənməyə başlanmışdır.

SSRİ-nin süqutundan sonra üzə çıxarılan faktlar sübut edir ki, kommunist partiyasının diqtəsilə sovet tarixşünaslığında tatarların tarixi bilərəkdən təhrif edilib. Bu prosesdə İ.Stalinin yeritdiyi qərəzli, anti-türk siyasəti mühüm rol oynayıb. Böyük Vətən müharibəsinin qızğın dövründə Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin qəbul etdiyi "Tatarstan partiya təşkilatında ideoloji və siyasi-kütləvi işin vəziyyəti və yaxşılaşdırılması tədbirləri haqqında" qərarı (09 avqust 1944-cü il) bunu sübut edir. Qərarda respublikada "millətçilik xarakterli səhvlər" olduğundan Qızıl Orda, tatar xanlığının tarixinin və "İdegey" dastanın öyrənilməsinə qadağa qoyulmuşdu. "İdegey" dastanın "İqor polku haqqında" dastandan daha güclü və rəsmi sovet tarixşünaslığına zidd olduğundan qadağan edilmişdi. Bundan bir qədər əvvəl 1944-cü ilin mayında isə Krım tatarları öz vətənləri olan Krım yarımadasından deportasiya olunmuşdu.

Stalin çalışırdı ki, tatar xalqının tarixini Kazan şəhərinin paytaxt olduğu respublikanın sərhədləri ilə məhdudlaşdırsın. Buna görə də bulqar doktirinasını irəli sürmüşdü. Bu doktirinaya əsasən Tatarstan Respublikasında yaşayan tatarların guya tatar-monqollarla heç bir aidiyyatı olmaması, onların babalarının volqa bulqarları olması təbliğ olunurdu. Buradan da belə səhv fikir irəli sürürdülər ki, Kazan, Sibir, Həştərxan, Krım tatarları bir-birindən köklü surətdə fərqlənən, ayrı-ayrı müstəqil xalqlardır. Bununla Stalin tatar xalqının öz kökündən ayırmaqla bərabər, həm də ruslarla Qızıl Orda arasında olan münasibətləri saxtalaşdırmağa, Lev Qumulyovun termini ilə ruslarla tatarları "qara əfsanə" ilə qarşı-qarşıya qoymağa çalışırdı. Stalin rejiminin aradan qalxması ilə bulqar doktirinası da aradan qalxdı.

Müasir dövrdə tatar-monqollar haqqında ərəb mənbələrində olan düşmən fikirlərə ərəb ölkələrinin heç birində alternativ fikirlər yoxdur. Bəlkə də bu tatar-monqolların Ərəb xilafətinin varlığına son qoyandan sonra ərəblərlə heç bir yaxın əlaqələrinin olmamasından irəli gəlir. Lakin tatar-monqollar rus xalqının tarixində, etnogenezində mühüm rol oynadığından bu sahədə tədqiqatlar daim davam etmiş və müasir dövrdə əvvəlki düşmən mövqedən tamamilə fərqli yeni yanaşma ortaya qoyan tarixçilər formalaşmışdır. Belə tarixçilərdən L. Qumulyov, Fomenko, Nosovski, Mixail Veller, V.M.Zaznobin, V.Demin, Aleksandr Nevrezov, V.A.Çudinov, Karimulin, İsaakov, Artem Voytenkov və başqalarını göstərmək olar. Onlar rus və sovet tarixşünaslığında tatar-monqollar haqqında yazılanların kökündə səhv olduğunu iddia edirlər. Onlar iddia edirlər ki, tatar-monqolların Rusiyanı işğal etməsi ilə bağlı fikirlərin elmi əsası yoxdur.

Lev Qumulyov Rusiya tarixşünaslığında tatar-monqollarla bağlı uzun illər mövcud olmuş düşmən mövqedən tamamilə fərqli, yeni fikirlər irəli sürüb. Onun "Qədim türklər", "Hunlar", "Xəzəristanın kəşfi", "Etnogenez və Yerin biosferi", "Hunlar Çində" , "Rus və Böyük Çöl" kitabları və tatar-monqollardan bəhs edən "Apokrifik dialoq" məqaləsində sovet və əvvəlki rus tarixşünaslığını tənqid edən alternativ mövqe ortaya qoyub. L.Qumulyovun qeyd edir ki, "Rusiyada Asiya kökənli xalqlara qarşı çox güclü antipatiyanın meydana çıxmasına səbəbi sadə xalqın cahilliyindən irəli gəlib. Onlar bilmirdilər ki, özləri (yəni ruslar) yüzdə əlli Asiya əsillidirlər. Çünki indi də tarixlə maraqlanmırlar. Maraqlananlar da birtərəfli yanaşırlar." O, belə hesab edir ki, Rusiyaya heç bir tatar-monqol basqısı olmayıb, rus knyazlıqları Qızıl Ordanın tərkibinə könüllü daxil olmuşlar.(102)

L.Qumulyovun qeyd edir ki, Kiyevi birinci dəfə 1165-ci ildə Andrey Boqolyubski viran qoyub. İkinci dəfə bu işi 1203-cü ildə knyaz Ryurik Rostislavoviç Smolenski görüb. "İqor polku haqqında söz" dastanında tərənnüm olunan həmin o knyaz! Üçüncü dəfə 1265-ci ildə İzyaslav Çerniqovsi "rus şəhərlərinin anasını" yerlə yeksan edib. Batı gələndə şəhər bu üç dağıdıcı basqından sonra sadəcə böyük bir xarabazarlıq halında idi. Kiyev knyazı Mixail isə yerinə voyevodasını qoyaraq Polşaya qaçmışdı.

Lev Qumulyov deyir ki, türklər qüdrətli, böyük potensiala malik xalqdır. Əgər gələcəkdə başqa xalqlara qaynayıb-qarışsalar, hansı dildə danışmalarından asılı olmayaraq, yenə də tarixi proseslərin katalizatoru kimi qalacaqlar. O, Qızıl Ordanın qurucusunun türk olduğunu iddia edərək deyir ki, "Damarlarımda Qızıl Ordanın qurucusu Cuçi xanın türk qanı axır" (28)

Mixail Veller özünün "Bizim knyaz və xan" əsərində tatar monqollar haqqında indiyə qədər yazılanlardan fərqli münasibət ortaya qoyaraq yazır: "Monqol-tartar imperiyası ilə Rusiya imperiyası xəritəsi üst-üstə düşür. Biz Qızıl Ordanın varisləik. Rusiya tarixinə aid sənədlər IV İvan Qroznının dövründə toplanaraq, yoxa çıxarılıb. Onun dövründə Qızıl Orda aradan qalxdı. Bundan sonra saxta tarix yazılıb. Tarixçi Tatişevin sənədləri Peterburqdakı evində yandırılıb. Deməli tarix təkcə sovet dövründə deyil, bütün dövrlərdə saxtalaşdırılıb.

Tatar-monqollar Rusiyanı işğal etməyiblər. Onlar yalnız Böyük Moskva və Vladımır knyazlıqlarına gəlib, onlarla birlikdə qərb knyazlıqların hücumundan Moskvanı qoruyublar. Litva knyazlığı və Rusiyanın dördə birini təşkil edən qərbi Rus knyazlıqları var idi. Bir də şərqi Rus ulusu və ya şimal Rus ulusu və ya Tartariya adlanan bir qurum var idi. Tatar-monqollarda böyük knyaz bəylərbəy adlanırdı. Şərqi Rus ulusunu da bəylərbəy idarə edirdi. Qızıl Orda milli dövlət deyildi, çoxmilli dövlət idi. Çıngiz xan deyirdi ki, bütün dinlər əldəki beş barmaq kimidir. İnsanlar necə dua edirlərsə etsinlər allah birdir. İslamı qəbul etməyən tatar-monqolların bir hissəsi ruslarla ailə qurmaq üçün şərqi Rus ulusuna gəlirdilər. Şərqi Rus qərbi Rusa nisbətən bütün cəhətlərinə görə inkişaf etmişdi. Tatar-monqollar knyazın yanında xidmət etmək üçün xristianlığı qəbul etmişlər. Buradan da Karamzinlər, Aksakovlar, Axmatovlar və başqa aristokrat ailələri meydana gəlmişdir.” ( 49)

V.M. Zaznobin 2 iyul 2016-cı ildə Belovejski Puşedə “Rus və Belorus sivliziyası üçün adekvat idologiya” adlı mövzuda etdiyi çıxışında deyib: “Bəziləri deyir ki, Rusiya Ukraynanı özünə birləşdirib. Bəziləri isə əksinə deyirlər ki, Ukrayna Rusiyanı özünə birləşdirib. Bu ruslar tatar-monqollar olublar. Tatar-monqol işğalı olubmu? 200 min süvari, hər bir süvarının də azı 18 atı, 2 milyon at edir. Bunlara kim qulluq edib. XIX əsrdə 2 mln monqol var idi? Hazırda isə 2,5 milyon monqol var. Bəs XIII əsrdə olan böyük imperiyanı kim yaradıb? Bütün imperiyaların tarixi sənədləri mövcuddur. Monqolstanda isə bunlar yoxdur. Monqollar hazırda Çingiz xanı çinli hesab edirlər. Halbuki, Çingiz xan Çini işğal edib.

Kulokov döyüşündə yazırlar ki, Rusiya monqol-tatar zülmündən xilas olub. Bizim prezident qərb dairələri ilə görüşlərinin birində qeyd edib ki, bəzi sənədlərdə qeyd olunub ki, Kulikova döyüşündə hər iki tərəfdən ruslar vuruşub. Prezident də bu məsələlər barədə danışır. Deməli tatar-monqol işğalı olmayıb.”

Aleksandr Nevrezov yazır: “1771-ci ildə 3-cildliklik Böyük Britaniya ensklopediyasının 3-cü cildinin 887 səhifəsində Qara dənizdən sakit Okeana qədər olan ərazidə yerləşən dövlət Rusiya deyil, “Böyük tartariya” adlanır. Deməli rus və sovet tarixşünaslığında qeyd olunanların əksinə olaraq XVIII əsrin ortalarına qədər bu ərazidə olan dövlət Rusiya adlanmayıb.”

V.A.Çudinov bu məsələ barədə deyib : “Heç bir tatar-monqol işğalı olmayıb. Knyazlıqlar arsında müharibə olub. Mərkəzləşmiş dövlət yaradıldıqdan sonra tarix Romanovların Rusiyanı idarə etmək üçün saxtalaşdırılıb.”

Vaxtilə Napoleon Rusiyaya yürüş edərkən qəribə mənzərə ilə rastlaşır. O elə bilirdi ki, Rusiya Avropa ölkəsidir, lakin onu qarşılayan qıyıq gözlü, dik papaqlı türkləri görəndə əli ilə üzünü tutub heyrətdən qışqırmışdı ki, “ya Rəbb, mən skiflərlə döyüşməli imişəm”. Napoleonu belə bir ifadəsi var: “Rusu çox qaşısa**n,** altından tatar çıxar”. Bu sözü bu yaxınlarda Rusiyanın prezidenti də işlətdi.(36)

Müasir dövrdə tatar-monqollara alternativ mövqedən yanaşan rus tarixçilərinin fikirlərini tezis şəkilində aşağıdakı kimi qeyd etmək olar:

- Kiyev Rus dövlətinin zornan xristianlaşdırılmasını ört-basdır etmək üçün tatar-monqol işğalı haqqında əfsanələr uydurulub;
- Heç bir tatar-monqol işğalı olmayıb;
- Monqol sözü yunan dilində böyük deməkdir və heç bir xalqa aid edilmir;
- Rusiyadakı tatar-monqollar qoşunlarının 70-80%-i ruslardan ibarət idi;
- İki vəzifə var idi. Knyaz sakit dövrdə ölkəni idarə edirdi. Xan isə baş komandan kimi müharibə dövründə qoşuna rəhbərlik edirdi;
- XIX əsrin ortalarında Böyük Tartariya haqqında çoxlarının məlumatı var idi. Sonradan bu məsələ ilə bağlı faktlar bilərəkdən məhv edilib;
- XIX əsrin ortalarında Qərbi avropa paytaxlarında gözəlliyi ilə hamını valeh edən rus aristokratı Varvara Dmitrovna Rimski-Korsikovanı Tartariyadan olan Venera adlanırdılar;
- Böyük Tartartiya haqqında 1771-ci ildə nəşr olunmuş 3-cildliklik Böyük Britaniyanın ensklopediyasının 3-cü cildinin 887 səhifəsində, 1795-ci ildə nəşr olunmuş 6 cildlik İspan ensklopediyasında, 1676 ildə nəşr olunmuş Fransız ensklopediyalarında, 1794-cu ildə Londonda nəşr olunmuş kitabda və s. əsərlərdə məlumat var;
- Kulikova döyüşü haqqında tarixi mənbələrdə XIX əsrin əvvələrinə qədər heç bir məlumat yoxdur. Bu döyüş haqqında ilk dəfə Karamzının 1818-ci ildə nəşr olunmuş “Rusiya dövlətinin tarixi” əsərində yazılması və əvvəlki mənbələrdə heç bir məlumatın olmaması şübhələri artırır. XIII-XVIII əsrlərdə Mamay və digər tatar qəhrəmanları haqqında rus mənbələrində çoxlu sayda məlumatlar olduğu halda “Kulikova döyüşü”nün rus qəhrəmanları, o cümlədən Dmitri Donskoy haqqında məlumat yoxdur. Onlar haqqında təbliğat xarakterli məlumatlar XIX əsrin 40-cı illərindən dövriyyəyə buraxılıb. Böyük Vətən müharibəsi dövründə vətənpərvərlik təbliğatında istifadə etmək üçün Dmitri Donskoydan istifadə olunub. Arxeoloqlar Kulikova çölündə kütləvi məzarlıq və s. aşkara çıxarmayıblar. Rusiyada Kulikova döyüşünə aid ilk abidə 1849-cu ildə ucaldılıb və

çarın sifarişi ilə tablolar çəkilib. Bu döyüşün qəhrəmanlarının abidələri Rusiyanın müxtəlif şəhərlərində XX əsrdə ucaldılıb;

- Rusiyada "Qızıl Orda" sözü XIX əsrin əvvələrində meydana çıxıb. "Monqol-tatar" termini isə 1823-cü ildə tarixçi P.N.Naumov tərəfindən dövriyəyə buraxılıb. "Tatar-monqol işğalı" sözü isə Xristian Kruzenin 1817-ci ildə nəşr olunmuş "Avropa tarixinə dair Atlas" əsərində ilk dəfə işlədilib. Bu əsər rus dilinə 1845-ci ildə nəşr olunsa da, bu termindən daha çox XX-əsrdə, təxminən 1935-ci ildən sonra daha çox istifadə olunub.

Hazırda Rusiyada tatar-monqollara düşmən mövqedən yanaşmağın Rusiya Federasiyanın dövlət maraqlarına da zidd olduğunu iddia edən bir çox ziyalılar yeni mövqe ortaya qoyurlar. Onlar iddia edirlər ki, Rusiyanın tarixi kitablarında tatar-monqollara düşmən münasibət Rusiya vətəndaşları arasında qarşıdurmaya, vətəndaş sülhünün aradan qalxmasına və dövlətin zəifləməsinə gətirib çıxara bilər. Müasir dövrüdə Rusiya Federasiyasında ruslardan sonra sayça çoxluq təşkil edən tatarlar, başqırdlar, çuvaşlar, kalmıklar və digər bir çox millət və xalqlar tatar-monqolların varisləridir. Yaddan çıxarmaq lazım deyil ki, Çar Rusiyası dövründə imperiya siyasətinə uyğun olaraq azərbaycanlılar da tatar adlandırılırdı. Əgər bu gün Rusiya məktəblərində ruslarla birlikdə bu xalqların nümayəndələri də, eyni auditoriyada dərs keçirlərsə tatar-monqollar haqında deyilən düşmən fikirlər auditoriyada dərs keçən şagir və tələbələri iki cəbhəyə ayıra bilər. Nəzərə alsaq ki, həmin şəxslər sonradan Rusiya ordusunda xidmət edəcək, bu düşmənçilik rus ordusnun zəifləməsinə də gətirib çıxara bilər. Deməli köhnə yanaşma səhvdir və onu davam etdirmək hazırkı dövrün tələblərinə cavab vermir. Ona görə də hazırda Rusiyada əvvəlki yanaşmadan əl çəkilməsi, alternativ dərsliklər yazılması, tatar-monqolları qəddar işğalçı kimi təqdim etməkdənsə Qızıl Orda ilə Rus knyazlıqları arasında mövcud olmuş əlaqələrin, onlar arasında əməkdaşlığın, müttəfiq kimi üçüncü qüvvəyə qarşı mübarizələrinin təbliğinə üstünlük verilməsi təklif olunur. Bir də diqqət yetirsək Rusiyada tatar-monqolların varisləri kimi qalmış bütün millət və xalqlar türk dilli xalqlardır. Əgər tatar-monqol qoşunlarında monqollar üstünlük təşkil etsəydi, onda onların varisləri monqol dilli əhali olmalı idi. Deməli buradan da belə bir nəticəyə gəlmək olar ki, tatar-monqol qoşunlarının tərkibinin əksəriyyəti türk tayfalarından təşkil olunmuşdur.

**Tatar- monqollar Azərbaycan tarixşünaslığında**

Azərbaycanda

Tatar-monqollara Çar Rusiyası və SSRİ dövründə bəslənən düşmən münasibət "Azərbaycan tarixi" kitablarında hələ də qalmaqda davam edir. Bəziləri köhnə dərsliklərdən oxuduqlarına istinad edərək deyə bilərlər ki, axı tatar-monqol işğalları olub, bu işğallarda çoxlu sayda insan qırılıb, qanlar tökülüb, bunların yazmamaq tarixi saxtalaşdırmağa gətirib çıxara bilər. Həmin şəxslərin fikirlərinə hörmətlə yanaşmaqla yanaşı, hesab edirik ki, onların bu iddialarına cavab vermək üçün məsələnin bir qədər izahına ehtiyac var.

Bütün xalqların tarixində olduğu kimi Azərbaycanın da tarixində çoxlu saylı işğallar, müharibələr olub. Azərbaycanın beş minllik dövlətçilik tarixi var. Bu tarixin Mannadan başlanan üç min illik dövrünün təxminən min ili müstəqillik, iki mini isə işğallar dövrünə aiddir. Mərkəzləşmiş dövlətlər yaradılarkən əyalətləri özünə tabe etmək üçün ara müharibələri də olub. Manna, Atrapatena, Qafqaz Albaniyası, Sasanilər, Girdiman, Ərəb xilafəti, Şirvanşahlar, Sacilər, Rəvadilər, Salarilər, Şaddadilər, Səlcuq imperiyası, Atabəylər, Hülakülər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar, Xanlıqlar, Qacarlar, Rus-İran müharibələri, çar Rusiyasının müstəmləkə dövrü, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR tarixləri hərbi əməliyyatlar, işğallar, işğala qarşı mübarizələrlə doludur. Bu dövrlərdə çoxlu sayda ara müharibələri baş vermiş, bu müharibələrə aid yazılan bəzi kitablarda çoxlu sayda qəddarlıq, qan tökülməsi, insanlığa zidd olan digər faktlara rast gəlmək olur. Məsələn, Nadir şahın qardaşı oğlu Əliqulunun ona qarşı sui-qəsd təşkil edərək başını kəsməsi və Nadir şahın başını nizəyə keçirərək nümayiş etdirməsini, Adil şah adı ilə taxta çıxaması. (14, s.41). I Şah İsmayılın ölümündən sonra Səfəvilər dövləti daxilndə rumlu və təkəli tayfaları ilə ustaclı tayfası arasında müharibənin baş verməsi. Ustaclı dəstələrinin məğlub olması və Qəzvində onların başlarından "Minarə ucaldılması və s."(14, s.60) Amma düzgün olaraq bu cür faktlara dərsliklərdə yer verilmir. Bəzən ayrı-ayrı şəxslər bu cür faktları qabardaraq görkəmli tarixi şəxsiyyətlərə qarşı mətbuatda hücuma keçməyə cəhd etsələr də, bu cəhdlərin qarşısı dövlətçiliyə bağlı ziyalılar tərəfindən alınır. Lakin bu məsələdə nədənsə tatar-monqollar hər iki tərəfin diqqətindən kənarda qalıb. Azərbaycan ziyalılarının dəsrliklərdə tatar-monqolların əleyhinə olan düşmənçilik faktlarına heç bir reaksiya verməməsi narahatlıq doğurmaya bilməz.

Rus və sovet tarixşünaslığında Azərbaycan tarixinin saxtalaşdırılması haqqında çoxlu sayda məqalə və kitablar yazılıb. Bu saxtalaşmanın aradan qaldırılması sahəsində çox işlər görülüb. Lakin təəssüf ki, hələ də tatar-monqollarla bağlı tarixi saxtakarlıqları tam aradan qaldırmaq mümkün olmayıb. Fikrimizcə bunun əsas səbəbləri aşağıdakılardan ibarətdir:

1. Tatar-monqollara hələ də düşmən münasibətin qalmasının əsas səbəbi qərbi Avropa, ərəb, fars, rus və sovet tarixşünaslığının təsiri ilə Azərbaycan tarixçilərinin bu topluma hələ də özgə, yad münasibət bəsləməsi;
2. Hazırda qərbi Avropa, ərəb, fars, rus, erməni və s. mənbələrdə olan faktların heç bir təhlil aparılmadan, tənqidi münasibət bəsləmədən avtomatik olaraq dəsrliklərə köçürülməsi;
3. Tatar-monqolların fəht etdiyi ərazilərdə mövcud olmuş dövlətlərin öz əvvəlki mövqeləri itirdiyindən onlara qatı düşmən münasibət bəsləməsi və onların sifarişi ilə yazılan əsərlərdə də bu münasibətin özünü açıq aydın büruzə verməsi;
4. Bəzi tədqiqatçılarda olan süni müsəlman təəssübkeşliyinin tatar-monqollar haqqında ərəb mənbələrindəki düşmən fikirlərə tənqidi yanaşmağa imkan verməməsi, həmin mənbələrdəki faktların olduğu kimi dərsliklərə köçürülməsi;
5. Şimali Azərbaycan Rusiya tərəfindən işğal olunduqdan sonra çar Rusiyası və sovet dövlətində bu topluma olan düşmən münasibətin mexaniki olaraq Azərbaycan tarixşünaslığına da keçməsi;
6. Sovet rejimində 30-cu illər represiyaları zamanı ziyalıların pantürkist ittihamı ilə məhv edilməsi siyasəti, türk xalqlarının Qazaxstan və Orta Asiyaya sürgün edilməsi nəticəsində ictimai rəydə türkçülüyə və o cümlədən tatar-monqollara düşmən münasibətin gücləndirməsi;
7. SSRİ-nin yaranmasından sonra "tatar-monqol zülmü" termini ruslarla tatarlar arasında münasibətləri çox radikallaşdırdığından, bunu SSRİ-nin tərkibinə daxil olmayan monqol sözünün arxasında "gizlətməyi" qərara alınması. Bu münasibətin mexaniki olaraq Azərbaycanda yazılan əsərlərə də siyarət etməsi;
8. Ermənilərin Qafqaza küçürülmüş xalq olduğunu ört-basdır etmək və seperatizmə, torpaq iddalarına haqq qazandırmaq üçün Azərbaycan türklərinin guya yerli deyil gəlmə olması haqqında saxta fikirlər irəli sürmələri bəzi tarixçilərin müdafiə mövqe tutaraq bu addımı atması;
9. XX əsrin axırlarında yenidən baş qaldıran erməni seperatizminin ideoloqlarının hücumlarından bəzi tarixçilərin ehtiyatlanıb səhv olaraq, tatar-monqol sözündən tatar sözünü çıxarmaqla öz vəzifələrini bitmiş hesab etməsi və bu topluma monqol adı altında hücumlara qoşulmaları;
10. Etnik baxmdan türk olmayan tarixçilərin problemə türkçülük, azərbaycançılıq mövqeyindən deyil, mənsub olduqları milli azlığın mövqeyindən yanaşması.

Tatar və monqolların mənşəyi ilə bağlı Azərbaycan tarixşünaslığında aşağıdakı faktlar mövcuddur.

Azərbaycan tarixi üzrə qaynaqlar kitabında qeyd olunur ki, ərəb müəllifi İbn Əl-Əsir "Əl-Kamil Fi-T-tarix" əsərində monqolları tatarlar adlandırır". (6,s.160)

Bəzi tədqiqatçılar monqolları başqa etnik qrupa, moğolları isə türk tayfalarına aid edirlər. Lakin faktlar sübut edir ki, müxtəlif müəlliflər öz əsərlərində bu qurumu "monqollar" və "moğollar" adlandırsalar da bu termin eyni mənanı kəsb edib.

C.Zeynaloğlunun "Azərbaycan tarixi" kitabında qeyd olunur ki, "Qibla Qaan zamanı moğolların ən parlaq zamanı sayılmağa layiqdir. Paytaxtı Qaraqurumdan Pekinə köçürdü və digər qardaşı Hülakü xanı qərbi Asiyaya elxan təyin etdi... Elxanilər tarixdə "İran moğolları" deyə yad edilməkdədir. Halbuki, Xorasandan diyari-Ruma qədər uzanan elxanlıq ərazisində əhəmiyyətli bir mövqe əxz edən Azərbaycan məmləkəti idi və Elxanilərin paytaxtları da Marağa, Təbriz, Sultaniyyə kimi şəhərlər olmuşdur.Hətta bir zaman Əbu Səid xandan sonra gələn məruf səkkiz hökümdar sikkələrində pulların kəsildiyi yeri "zərbi-Azərbaycan" deyə bildirmişlər. "Mirat ül-bulani Nasiri" kitabında bu elxanilər Təbriz şəhərinə aid edilərək, "Azərbaycan hökuməti" deyə tərif edilməkdədir. Buna görə də, bu elxanlara "Azərbaycan moğolları" demək daha doğru olardı. Laki təəssüf ki, indiyə qədər tariximizi yazan ərəb və əcəm tarixçiləri hadisələri öz nöqteyi nəzərlərinə görə təhrif etmişlərdir. (34,s.29)

Azərbaycanın sovet dövrü tarixşünaslığında tatar-monqollara aid məqalə və kitablar yazılmışdır. Bu dövrdə Ə.Ə.Əlizadə, M.X.Şərifli, V.Z.Piriyev, S.M. Onullahi və başqaları XIII-XIV əsr tarixinin müxtəlif məsələlərinə aid məqalə və kitablar yazıblar (22,24,30,31,37,38,39,40,41,42). Sovet dövründə nəşr olunmuş üç cildlik "Azərbaycan tarixi" kitabının birinci cildində (1), Ə.Quliyev və E.Məmmədovun rus dilində nəşr olunmuş dərslikdə (53), dövlət müstəqilliyinin bərpasından sonra nəşr olunmuş 7-cildlik "Azərbaycan tarixi" (4,5), Z.Bünyadov, Y.Yusifovun redaktorluğu ilə nəşr olunmuş "Azəbaycan tarixi"(2), S.Əliyarlının redaktorluğu ilə nəşr olunmuş "Azərbaycan tarixi"(3) kitablarında XIII-XIV əsrlər ayrıca fəsil kimi verilirlmişdir. Bu əsərlərdə tatar-monqollara mənfi münasibət açıq aydın özünü büruzə veririr.

Sovet dövrü tədqiqatçılar içərisində Akademik Ə.Ə.Əlizadə və V.Z. Priyevin əsərləri daha çox diqqəti cəlb edir. Ə.Ə.Əlizadənin elmi fəaliyyətində görkəmli dövlət xadimi Fəzlullah Rəşidəddinin elmi irsinin araşdırılması mühüm yer tutur. Ə.Ə.Əlizadə 1957-ci ildə "Came ət-təvarix"in III cildinin elmi-tənqidi mətnini çap etdirib, həmkarı A.K.Arends isə həmin cildi rus dilinə tərcümə edib. O, "XIII-XIV əsrlərdə Azərbaycanın ictimai-iqtisadi və siyasi tarixi" adlı kitabında"Came ət-təvarix" əsərindən tarixi mənbə kimi geniş istifadə edib. 7 fəsildən ibarət əsərdə feodal torpaq mülkiyyəti formaları, feodal sinifləri, kəndlilərin vəziyyəti, tatar-monqol yürüşləri ərəfəsindəki vəziyyət, Cəlaləddinin Azərbaycanı tutması, tatar-monqolların yürüşləri, Qızıl Orda xanları ilə Hülakilər arasında gedən müharibələr, Azərbaycanın Çobanilər və Cəlairilər dövründəki vəziyyətivə s. məsələlər tədqiq olunub. Ə.Ə.Əlizadənin əsərlərinin ana xəttini XIII-XIV əsrlərdə köçəri monqol əyanlarının hökmranlığı dövründə hakim siniflərə, əsasən işğalçılara-köçəri feodallara və onların yeritdiyi torpaq və vergi siyasətinə qarşı oturaq, məzlum xalq kütlələrinin çıxışları və üsyanları təşkil edir. Bu əsərlərdə tatar-monqollara qarşı mənfi, düşmən münasibət özünü açıq, aydın göstərir.

V.Z. Priyev yazdığı əsərlərdə Ə.Ə.Əlizadənin tədqiqatlarını davam etdirib. O, əsərinin "Azərbaycanda xalq kütlələrinin vəziyyəti və Çobani feodallarına qarşı mübarizə" adlanan üçüncü fəslində K.Marksın monqol əsarəti haqqında çox çərt fikirlərindən stat gətirib. V.Piriyevə qədər bu stat sovet dövründə nəşr olunmuş üç cildlik "Azərbaycan tarixi" kitabının birinci cildində verilib. K.Marks demişdir: Monqol əsarəti "...nəinki əzirdi, hətta onun qurbanı olmuş xalqın ruhunu təhqir və puç edirdi"(1,s.198, 25)

V.Priyev öz kitabında tatar-monqol xanının atdığı müsbət addımları da gölgəyə salır. Məsələn, müəllif yazır: 1316-cı ildə Qızıl Orda xanı Özbək Azərbaycana hücum edir və Kür çayının sahilinə kimi gəlir. Kür çayından şimalda Pirsaat çayının yanında yerləşən Pir Hüseyn məqbərəsi düşmən qoşunları tərəfindən tutulur. Məqbərənin sakinləri saysız-hesabsız Qızıl Orda qoşununun zülmündən xilas olmaq üçün kömək göndərilməsini xahiş edirlər... Özbək qoşunundan olan iki monqol əsgəri Pir Hüseyn məqbərəsində, əhalinin dini ibadətgahındakı qiymətli şeyləri qarət etmişdir. Onlar əllərindəki nizəni məqbərənin pəncərələrindın uzadaraq daxildə asılmış pərdələri qırmış və parçanın onlara verilməsini tələb etmişdilər. Məqbərə sakinlərinin və xüsusilə qadınların səs-küyü bu iki nəfəri qarətçilikdən əl çəkməyə məcbur etmişdir. Özbək xan sonradan həmin şəxsləri cəzalandırsa da, bu, yalnız ğözdən pərdə asmaq idi".(25,s.77-78)

Müəllif "məqbərənin sakinləri saysız-hesabsız Qızıl Orda qoşununun zülmündən xilas olmaq üçün kömək göndərilməsini" başqasından deyil, məhz Qızıl Orda xanları ilə eyni nəsildən, Çıngiz xanın nəslindən olan Hülakülərdən xahiş etdiyiklərini burada daha geniş izah etsəydi fikrimizcə məsələ daha aydın başa düşülərdi. Onda aydın olardı ki, digər işğallardan fərqli olaraq bu dövrdə Azərbaycana hücum edənlərlərə də, Azərbaycanı müdafiə

edənlərə də Çıngiz xanın nəvələri rəhbərlik edirdi. Yəni müəllifin təbirincə desək işğalçı və vətəni müdafiə edənlər eyni nəslin nümayəndələri idilər. Müdafiəçilər sovet tarixşünaslığında göstərildiyi kimi heç də azərbaycan, erməni, gürcü xalqlarının birləşmiş qüvvələri deyildi.

Azərbaycanın sovet dövrü tarixçiləri problemin tədqiqi sahəsində böyük zəhmət çəksələr də, sovet dövrünün qoyduğu qəliblərdən kənara çıxa bilməmiş, məsələyə birtərəfli yanaşmışlar.

Azərbaycan sovet dövrü tarixçiləri tatar-monqol tarixinə marksizm-leninizm klassiklərinin əsaslandığı sinfi mübarizə konteksindən yanaşmışlar ki, bu da tarixin saxtalaşdırılması ilə nəticələnmişdir. Onlar Azərbaycana yürüşlər etmiş ərəblərə, səlcuqlara, tatar-monqollara və digərlərinə qarşı Azərbaycan, erməni, gürcülərin birgə mübarizə apardıqlarını sübut etməyə çalışmış, tarixi saxtalaşdırmaqla, süni şəkildə xalqlar dostluğunu möhkəmlətməyə çalışmışlar.

Sovet dövründə Azərbaycan tarixçiləri əsas diqqəti sinfi mübarizəyə verdiyi, ölkəyə gələn və ölkədə yaşayan əhalinin milli tərkibinə fikir vermədiyi halda erməni tarixçiləri əhalinin milli tərkibini saxtalaşdırmaqla məşğul olmuşlar. Məsələn, erməni müəllifi L.O.Babayan 1969-cu ildə nəşr etdirdiyi əsərində Arranın "erməni torpağı olmasını əsaslandırmaq" məqsədi ilə belə bir fikir irəli sürmüşdü ki, guya XIII əsrdə bu bölgənin əhalisi ermənilərdən ibarət olmuşdur. 1276-cı ildə Arranda monqol hökmdarı Abaqa xana (1265-1282) qarşı qalxmış üsyandan bəhs edən erməni tarixçisi hadisə barədə yazmışdı: "Arran ərazisində bu dövrdə hələ də hakim etnik element erməni əhalisi idi, buna görə də, həmin itaət etməyən adamların (üsyançıların) erməni kəndliləri olduğunu desək, səhv etmiş olmarıq".

Ermənilərin sovet dövründə tatar-monqollara düşmən fikirləri yaymaqda əsas məqsədlərindən biri Moskvanın siyasətinə uyğun olaraq Azərbaycan xalqının yerli deyil gəlmə olmasını, ermənilərin isə yerli olduğunu sübut etməkdən ibarət olmuşdur. Azərbaycan alimlərinin əksəriyyəti ruslar tərəfindən Azərbaycana köçürülmüş ermənilərin bu məsələdə saxtakarlığını ifşa etmək əvəzinə, tatar-monqol sözündən tatar sözünü çıxarmaqla, onların yazdıqlarını təkrar etməklə işlərini bitmiş hesab etmişlər.

Obyektivlik naminə qeyd etmək lazımdır ki, akademik Ə.Ə.Əlizadə sovet dövründə L.O.Babayanın bu saxtakarlığını çətinliklə olsa da ifşa edə bilmişdir. O, üsyançıların başçısının "kəfənə bürünərək Abaqa xanın hüzuruna gəlməsi" faktını erməni tarixçisinin nəzərinə çatdıraraq soruşmuşdur ki, ermənilər nə vaxtdan ölülərini kəfənə bürüyüb basdırırlar?". Bununla da erməni tarixçisinin iddialarının saxta olduğunu sübut etmişdir.( 24, s.65-69)

Sovet dövründə mərkəzin tatar-monqollara düşmən münasibəti təbii ki, Azərbaycanda nəşr olunan kitablarda da öz əksini tapmışdı. Bu dövrdə yazılmış kitablarda müəlliflər əsasən rus, ərəb və erməni mənbələrinə istinad etmişlər. Bu hətta sovet dövrünün tənəzzülü ərəfəsi, nisbətən obyektiv əsərlərin yazılmasına imkan yarandığı dövrdə də davam etmişdi. Məsələn, 1989-cu ildə nəşr olunmuş "Azərbaycan tarixi üzrə qaynaqlar" kitabında 1976-cı ildə Moskvada nəşr olunmuş Gəncəli Kirakosun "Ermənistan tarixi" əsərinin 4 fəsilindən faktlar göstərilib. Qeyd olunub ki, Gəncəli Kirakos monqol basqınlarını gözləri ilə gördüyündən onun kitabı bütün Zaqafqaziya tarixi üzrə dəyərli qaynaqlardan biri hesab olunur. Həmin kitabın XX fəsli "Dünyanı murdarlamaq üçün tatarların oraya çıxması haqqında" adlanır. "Gəncə şəhərinin dağıdılması" adlanan XXI fəsildə yazılır ki, "Birdən-birə tatar qoşunları şəhərə basqın etdilər,... hər kəs öz evində qapanıb özləri ilə birlikdə evlərini yandırırdılar ki, barı yağıların əlinə düşməsin... Dörd il şəhər adamsız və dağıdılmış bir vəziyyətdə qaldı." (6, s.162-163)

Sovet dövründə erməni Kirakosun tatarlara düşmən ruhda yazılmış "Ermənistan tarixi" əsərinə istinad edilməsi başa düşüləndi. Lakin 2007-ci ildə nəşr olunmuş yeddi cildlik " Azərbaycan tarixi" kitabının ikinci cildində həmin faktların təkrarən qabarıq şəkildə verilməsini başa düşmək çətindir. Kitabda yazılır: "1235-ci ildə monqollar Gəncəni mühasirəyə alıb, çox keçmədən onu tutdular. Hadisələrin şahidi Gəncəli Kirakosun yazdıqlarına görə, monqollar şəhərin bütün əhalisini - kişiləri, qadınları, uşaqları qılıncdan keçirtdilər... Gəncəni tutan monqollar, bir neçə günlük mühasirədən sonra Şəmkiri işğal edib yandırdılar, əhalisini qılıncdan keçirtdilər. Arranın başqa şəhər və qalalarının da taleyi belə oldu. Azərbaycan və Arranda monqol hökmranlığı dövrü başlandı." (4,s.33)

Fikrimizcə 1976-cı ildə Moskvada nəşr olunmuş Gəncəli Kirakosun "Ermənistan tarixi" əsərində monqollara nifrət aşılayan faktların ermənilərin azərbaycanlıların babalarına aid etdiklərinə yəqin ki, şübhə edən az adam tapılar. Əgər belələri varsa onları ən yaxşı halda sadəlövv adlandırmaq olar.

Akademik Əlisöhbət Subatzadənin rus dilində yazdığı "Azərbaycanlılar-etnogenez və xalqın formalaşması" adlı kitabın "Azərbaycan XIII-XV əsrlərdə. Əhalinin tərkibində dəyişiklər, türkdilliyin geniş yayılması, Azərbaycan ədəbi dilinin meydana gəlməsi və inkişafı" adlanan IX fəslinin I paraqrafı "Monqolların Azərbaycana yürüşləri və onun viranedici-dağıdıcı nəticələri " adlanır. (94, s.170) Müəllif kitabın bu hissəsində sovet tarixşünaslığına xas şəkildə ərəb

mənbələrinə istinadə monqolların viranedici hücumlarını göstərir. I paraqrafın adında yürüş edən qüvvələrin adı “monqollar” göstərilsə də, II paraqrafda bunlar “monqol-tatarlar” adlandırılır. (94, s.178), III paraqrafda isə göstərilir ki, Elxani Arqun xanın (1284-1291-ci illər) hakimiyyəti dövründə Orta Asiyadan Qaraqoyunlu və Ağqoyunlu tayfaların İrana və Azərbaycana gəlmişdi. (94, s.179)

Dövlət müstəqilliyinin bərpasından sonra yazılmış əsərlərdə də tatar-monqollara düşmən münasibət qalmaqda davam edir. Məsələn, VII cildlik "Azərbaycan tarixi" kirabının II cildində yazılır: "Monqol mühasirəsi ərəfəsində Ərdəbildə olan Yaqut əl-Həməvi bu hadisə haqqında belə yazırdı: "Mən gedəndən sonra tatarlar (monqollar) onlara hücum edib, camaatı qırmışdılar. Onlarla ərdəbillilər arasında döyüşlər oldu, əhali özünü çox yaxşı müdafiə edirdi və iki dəfə tatarları özlərindən uzaqlaşdıra bildilər. Lakin tatarlar üçüncü dəfə oraya qayıtdılar, zəif düşmüş şəhər əhalisi üzərində qələbə çaldılar və oranı zorla işğal etdilər. Tatarlar müsəlmanların üstünə düşüb, onları öldürdülər. Əhalidən tatarların gözünə dəyən heç kəs şəhəri tərk edə bilmədi. [Yalnız] gizlənənlər canlarını qurtara bildilər. Tatarlar şəhəri tamam dağıdıb, sonra çəkilib getdilər. Şəhər bir müddət belə dəhşətli xaraba vəziyyətdə, adamsız qaldı..." (4,s.326-327)

Şamaxını mühasirəyə alıb ələ keçirdilər, onu dağıdaraq əhalisini qırdılar. İbn əl-Əsir (1160-1234) monqolların şəhəri almasının və onun sakinlərinin qəhrəmanlıqla müdafiə olunmasının təfərrüatını xəbər verir: "... tatarlar nərdivanlarla şəhərin divarlarına çıxdılar, başqalarının sözlərinə görə isə, onlar çoxlu dəvə, inək, davar və s. yığdılar, habelə, həm özlərindən, həm də düşmən tərəfdən öldürülənlərin meyitlərini bir-birinin üstünə qalayaraq, təpəyə bənzər bir şey düzəltdilər, onun üstünə çıxaraq, şəhər üzərində hakim mövqe qazandılar və şəhər əhalisi ilə döyüşə girdilər. Şəhər sakinləri üç gün ərzində ən ağır vuruşmaya tab gətirdilər nəhayət, bir dəfə az qala məğlub olduqda öz-özlərinə dedilər: "Onsuz da qılıncdan xilas ola bilməyəcəyik, elə isə yaxşısı budur, möhkəm dayanıb, heç olmasa, şərəflə ölək"

Onlar həmin gecəni möhkəm durdular. Meyitlər qoxumağa və dağılmağa başladığından, tatarlar şəhərə üstün gələ bilməyib vuruşmanı dayandırdılar. Lakin monqollar əhalisi son dərəcə zəifləmiş və yorulmuş şəhərə yenidən həmlə etdilər. Şamaxı alınaraq qarət edildi və əhalisinin çoxu qırıldı." (4, s.152)

S. Aşurbəyli "Şirvanşahlar" adlı kitabının 136-cı səhifəsində ərəb müəllifi İbn-əl-Əsirin əsərinə istinadən yazmışıdr: "Ərəb müəlliflərinin məlumatına görə, əhali inadlı müqavimət göstərdiyindən, monqollar Bakını uzun müddət ala bilməmişdilər. Yalnız bütün ölkə işğal edildikdən sonra şəhər təslim olmaq məcburiyyətində qaldı.

Monqollar Beyləqanı dağıdaraq qarət etdikdən və qıpçaqlar ölkəsinə getdikdən sonra şəhərin canını qurtara bilmiş sakinləri geri qayıtdılar və şəhərin divarlarını yenidən bərpa etdilər. Lakin bu vaxt, h. 619-cu ilin səfər ayında (fevral, 1222) Beyləqan gürcülərin hücumlarına məruz qaldı. Şəhəri tutarkən, adətən, əhalidən müəyyən məbləğdə pul alıb gedən gürcülər bu dəfə əhalinin üstünə düşərək "tatarların özlərinə etdikləri qətl-qarəti onların başına gətirdilər" Bu dövrdə çiçəklənən şəhər və kəndləri viran qoyan, əhalisini qırıb çatan monqolların hücumları ilə əlaqədar Şirvanın, Qafqazın və bütünlükdə Yaxın Şərq ölkələrinin ağır xarici siyasi vəziyyəti, gürcülərin və digər yadelli işğalçıların Şirvana təcavüzkar basqınları, eləcə də xarəzmşahın hücum təhlükəsi Şirvanşahlar dövlətinin zəifləməsinə səbəb oldu. "

İctimaiyyət arasında türkçü kimi tanınmış, t.e.d.,prof. S.Əliyarlının redaktorluğu ilə 1996-cı ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabında mənbəyi göstərilməyən dəhşətli bir faktın nə məqsədlə veriməsini başa düşmək çətindir. Həmin faktda deyilir: "Bu axını təmsil edənlərin sırasında Çingiz xanın oğlu Cağatay, Cebe, Subutay, Xubilay, Celme kimi sərkərdələr var idi. Onların siyasi-mənəvi siması haqqında taxt-tac uğrunda çəkişmədə Çingiz xanın rəqibi olan Camux belə söyləyirdi: "Mənim andam (südqardaşılm)-red.) Temurçin dörd köpəyi insan əti ilə yedizdirib dəmir zəncirlə bağlamaq fikrindədir... Bu dörd köpəyin alınları bürüncdəndir, sir-sifəti...dilləri mişar kimi, ürəkləri isə dəmirdəndir, qamçı yerinə qılınc gəzdirirlər, şeh ilə qidalanır, küləklərin qanadlarında at sürürlər. Ölüm-dirim döyüşündə onlar adam əti yeyir, gələcək döyüşlər üçün yenə adam ətindən azuqə tuturlar." (3,s.287)

Bəzi rus tədqiqatçıları Çingiz xanın dörd köpəyinin olması ilə bağlı fikrə fərqli yanaşırlar. Onlar qeyd edirlər ki, "Köpək" (it) monqollar arasında "şərəf və sədaqət" rəmzi idi. Çingiz xan həyatını, xan olmasını və Böyük Monqol dövlətinin yaranmasını bu dörd sərkərdəsinə borclu olduğundan onları "dörd köpək" adlandırmışdı. (52, s.137-138)

Lakin S.Əliyarlının redaktorluğu ilə 1996-cı ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabında Cebe, Subutay, Xubilay, Celmenin heç bir mənbəyə istinad etmədən adam əti yediklərini iddia edilməsi fikrimizcə kökündən səhvdir. Birincisi monqolların saysız hesabsız mal-qarası, at ilxıları olduğu halda Çingiz xanın oğullarının insan əti yeməsini iddia etmək məntiqsizdir. İkincisi bu faktın əgər mənbəyi olsa belə bu Çingiz xana düşmən tərəfin fikrini özündə əks etdirən mənbədir. Bu cür mənbələri təhlil etmək, onlara tənqidi yanaşmaq hər bir tarixçinin borcudur. Lakin bunların heç birinə əməl etmədən həmin faktı "Azərbaycan tarixi" kitabına salmaq elmi baxımdan səhv olmaqla yanaşı, dövlətçilik baxımından da yanlışdır. Çünki Azərbaycan xalqı türk xalqları ailəsinə daxil olduğundan bu cür faktlar Azərbaycana düşmən olan qüvvələr tərəfindən Azərbaycan əleyhinə istifadə oluna bilər.

Azərbaycan tarixində Çingiz xanın nəvəsi Hülakü xanın yaratdığı Hülakülər və ya Elxanilər dövlətində mühüm rol oynamışdır. Bu barədə mənbələrin birində yazılır: " Bəni Abbasi xilafətini məhv edib, Çingiz xanın nəvəsi Hülakü xan təqribən iki yüz min türk qoşunu ilə İranı istila edib, qafqaza cumdu. Ərbabi-elm və fününu dost tutaraq, Hülaku xan kendisi dəxi fəzilətli, daireyi siyasətdə və ümumi intizamda pek məharətli bir hökümdar olduğunu müvərrixlər söyliyirlər. Gözəl binalara eşqi olduğundan darülsəltənəti olan Təbrizdə gözəl bir qəsr və sair şəhərlərdə dəxi cəmaəti-imarətlər tikdirmişdi. İslamı qəbul edən Hülakü xan adını Sultan Əhməd qoymuşdu. ( 34, s.54)

Hicri 703-cü (=1304) ildə, Ulcaytu Məhəmməd Xüdabəndə ibni-Arqun xan taxta oturdu. Sultaniyyə şəhərini bina və özünə paytaxt etdi. O, ədalətli və xeyirli işlər görən bir padişah idi. Onun adı, Bakı şəhərində bina etdirdiyi burc və məscidlər üzərindəki kitabələrdə indi də durur. Hükəmanın təhqiqatına və alimlərin söhbətinə çox mail idi. Şiəliyi qəbul etdi və sikkəni on iki imamın adına vurdurdu. Bir çox həkimanə sözləri vardır, bunları fazil adamlar toplamışlar... Ondan sonra, hicri 736-cı (=1317) ildə, 13 yaşında olan böyük oğlu Sultan Əbusəid taxta oturdu. Bunun dövründə Cüci ibni-Çingiz xan nəslindən Qıpçaq padişahı Özbək xan hakimiyyətə gəldi. Özbək qəbiləsi bunun adı ilə adlanmışdır- hicri 718-ci (=1319) ildə Dərbənd yolu ilə Azərbaycanı almağa gəldi. (7, s.49)

XIII yüzilliyin ortalarında Elxanilər dövlətinin yaranması memarlıq sahəsində müəyyən canlanmaya səbəb oldu. Elxanilər sülaləsinin banisi Hülakü xanın (1256-65) hakimiyyəti illərində Marağa rəsədxanası tikildi. Dövlətin paytaxtının Təbrizə köçürülməsi ilə bağlı Təbriz şəhəri önəmli memarlıq- sənətkarlıq mərkəzinə çevrildi. Təbrizin ətrafında Arquniyyə, Qazaniyyə, Rəşidiyyə kimi şəhərciklər salındı.

Qazan xanın vəziri Rəşidəddinin tikdirdiyi Rəşidiyyə xüsusilə məşhur idi. Akademiya şəhərciyi kimi tanınan Rəşidiyyədə 24 karvansaray, 1500 dükan, 30 min yaşayış evi, mədrəsələr, 60 min kitab fondu olan 2 kitabxana, hamamlar, bağlar, dəyirmanlar, yun parça və kağız karxanaları, boyaqxana, zərbxana, 2 cümə məscidi və s. tikililər olmuşdur. Rəşidiyyənin əsas memarlıq özəyini Günbəd (Rəşidəddin türbəsi), Dər üş-Şəfa (Şəfa evi) xəstəxanası, Abadsaray bağ-saray kompleksi təşkil edirdi.

Bu çağın möhtəşəm tikililərindən Təbrizdəki Əlişah məscidi (14-cü yüzillik) və Sultaniyyədəki Ulcaytu Xudabəndə türbəsi (1305-1306) diqqəti cəlb edir. Hər iki abidəni Elxani hökmdarı Ulcaytu Məhəmməd Xudabəndənin vəziri Tacəddin Əlişah Təbrizi tikdirmişdir (Əlişah həm də bu abidələrin memarı sayılır). Sonralar Ərk qalası adı ilə tanınan möhtəşəm Əlişah məscidi və əzəmətli Sultaniyyə türbəsi bir sıra abidələrin tikintisinə təsir göstərmişdir. Teymurun Səmərqənddə tikdirdiyi məscid və mədrəsələrin memarlıq quruluşu üçün Əlişah məscidi örnək olmuş, Ulcaytu Xudabəndə türbəsinin tikilməsindən yüz il sonra italyan memarı F.Brunelleskinin Florensiyada ucaltdığı Santa-Mariya del fyore kilsəsinin günbəzində Sultaniyyə türbəsinin konstruktiv üsullarından istifadə edilmişdir.

Hülakülərin regionda oynadığı müsbət rol haqqında çoxlu faktlar mövcuddur. Tarixi əsərlərdə mənfi imicə malik, müasir anlamla desək terrorçuluğa rəhbərlik edən İsmailiyyə və yaxud Batiniyyə deyilən firqənin aradan qaldırılmasında Hülakülərin müstəsna rolu qeyd olunur: "İsmailiyyə və yaxud Batiniyyə deyilən firqə məlun Həsən Səbbah adlı bir şeyx tərəfindən vicuda gətirilmişdi. Bunlar Qəzvin dağlarından Əlamud və sair adları ilə məhşur doqquz qala tikdirdilər və buradan aləmi-islamın hər bir nöqtəsinə canilər göndərməklə böyük hökümdarları qətl edib və istədiklərini də taxta oturtdular, canilər vasitəsilə çoxlu qətllər icra etdiklərindən nəticədə ümumi nifrət qazandılar. Səlcualar dəfələrlə üzərlərinə ordu göndərdilərsə də öhdələrindən gələ bilmədilər. Nəhayət, monğollar bunları meydandan qaldırdılar və bu surətdə böyük bir xidmət etmiş oldular. Keçmişdə Batiniyyə firqəsi fars və əcəmlər tərəfindən o zaman İranda hökm sürən türklər əleyhinə hərəkət etmək məqsədilə təsis edilmişdi. Fəqət sonralar hökümdarlardan kim çox verdi isə, onun əlində bir aləti oldu. (34,s.29)

XIII əsrdən bizə Əli adlı bir şair tərəfindən yazılmış "Qisseyi-Yusif" adlı bir əsər gəlib çatmışdır. Bu əsər həm Azərbaycan dilinin, həm də poeziyamızın tarixini öyrənmək baxımından çox əhəmiyyətlidir. Əsər 1233-cü ildə tamamlanmışdır. İzzəddin Həsənoğlunun iki qəzəli nisbətən məşhur olduğuna baxmayaraq, Nəsir Bakuvinin müxəmməsi son illərdə üzə çıxarıldığından az məlumdur. Ərqun xanın üçüncü oğlu, 23 yaşlı Ulcaytu qardaşı Qazan xanın vəfatından sonra Təbrizə gəlib onun yerini tutmuşdu. Tarixi mənbələrdə ədalətli və maarifpərvər bir sultan kimi xatırlanan Ulcaytu şair Nəsir Bakuvi tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan dilində yazılmış əsərlər sırasında İzzəddin Həsənoğlunun iki qəzəli və Nəsir Bakuvinin Sultan Məhəmməd Ulcaytuya (1304-1316) həsr etdiyi müxəmməsi diqqətəlayiqdir.

Binəsib olmaz o kəs kim, payinə üftadədir,
Afərin ol şahə kim, həqqa Hülakuzadədir,

Zərdə Hatəm, zurdə həmtaydur xaqan ilən. (5, s.120)

Hülakülərin Azərbaycanda gördüyü müsbət işlərdə xanın şəxsi məşvərətçisi, vəziri olmuş, görkəmli şəxsiyyət Nəsrəddin Tusinin xidmətləri əvəzsizdir.

**Nəsrəddin Tusi**

*Azərbaycanın görkəmli şəxsiyyəti, dünya şöhrətli alim, dövrünün ən görkəmli alimi, "ustad", "əsrin yeganəsi", "son filosof" və s. ləqəblərlə şöhrət qazanmış, "Əxlaqi Nasir", "Zinc Elxani" kimi yüzdən artıq əsərlərin müəllifi, Hülakü xanın vəziri Nəsrəddin Tusi (1201-1274) XIII əsrdə yaşayıb yaratmış böyük mütəfəkkir idi. H. Məmmədbəyli özünün "Marağa rəsədxanasının banisi Nəsrəddin Tusi" adlı əsərində Tusinin 76 əsərinin adını çəkir. (20, s.10)*

*Məhəmməd Nəsrəddin Tusi 17 fevral 1201-ci ildə Tusda dünyaya gəlmişdi. İbtidai təhsilini atasından, sonra da Həmədan şəhərində alan Tusi hərtərəfli təhsilini o dövrün görkəmli alimlərindən - İbn Sinanın və Bəhmənyarın ardıcıllarından almışdı. Çoxtərəfli və dərin biliyi sayəsində Məhəmməd alimlər arasında populyarlıq qazanmışdı. Tusinin 32 yaşı olanda Kuhistanın ismaililər sülaləsinin hökmdarı Nəsrəddin Möhtəşəm onu qonaq çağırmış və əxlaq məsələlərinə dair kitab yazmasını xahiş etmişdi. Tusi "Əxlaqi-nasir" adlı həmin kitabı yazıb 1235-ci ildə başa çatdırmışdı. Lakin azadfikirli müəllifin bu kitabı hökmdara qiyama çağırış təsiri bağışladığından Tusini həbs edib "Qartal yuvası" adlanan alınmaz bir qalaya saldırmışdı. İyirmi ildən artıq bir müddətdə qalada həbs cəzası çəkən Tusi çox çətin və dözülməz bir şəraitdə xeyli sayda əsər yazıb ərsəyə gətirmişdi. Onlardan biri də İbn Sinanın "İşarət" adlı fəlsəfi traktatına şərhlərdən ibarət olan kitab idi.*

*1253-cü ildə Çingiz xanın nəvəsi Hülakü xanın qoşunları alınmaz sayılan "Qartal yuvası"nı ələ keçirib dustaqda saxlanan alimləri, o cümlədən Nəsrəddin Tusini azad etmişdilər. Hülakü xan Nəsrəddin Tusini özünün şəxsi məşvərətçisi təyin etmişdi. Nəsrəddin Tusi vəzifəyə təyin olunduğu ilk günlərdən Hülakü xanın bir sıra vacib tədbirlərini həyata keçirmək üçün qızğın işə başlamışdı. Hülakü xan müsəlmanların müqəddəs yer saydıqları Bağdadı ələ keçirməyə cürət etmirdi. Nəsrəddinin tutarlı elmi dəlillərindən sonra xan belə addım atmaq qərarına gəlmişdi. Beləliklə də ərəb xəlifələrinin Abbasilər sülaləsinin beş yüz illik hökmranlığına son qoyulmuşdu.*

*Nəsrəddin Tusi dünya elmində Marağa rəsədxanasının əsasını qoyan alim kimi ad çıxarmışdır. Bu rəsədxananı tikdirmək fikri hələ zindanda olarkən baş qaldırmışdı. Ona görə də Bağdad alınan kimi o, Hülakü xanın icazəsi ilə inşaat işlərinə hazırlığa başlamışdı.*

*Marağada rəsədxana yaradılmasına böyük vəsait tələb olunduğu üçün Hülakü xan həmin işə bu qədər xərc çəkilməsinin məqsədəuyğunluğuna şəkk-şübhə ilə yanaşdığını bildirmişdi. Hökmdar alimə sual etmişdi: "Məgər ulduzlar haqqında elm o qədər faydalıdır ki, rəsədxana tikintisinə bu qədər xərc çəkilməsini istəyirsiniz?" Bu suala Xoca Nəsrəddin belə cavab vermişdi: "Gəlin belə bir iş görək. Qoy bir nəfər heç kimin xəbəri olmadan boş tası dağın başına qaldırıb oradan aşağı buraxsın". Belə də etmişdilər. Boş tas dağın başından dəhşətli gurultu qopararaq aşağı enəndə Hülakü xanın qoşunları arasında təşviş doğurmuşdu. Nəsrəddin və Hülakü xan bu gurultunu sakitcə dinləyəndən sonra böyük alim Hülakü xana demişdi: "Biz bu hay-küyün səbəbini bilirik, qoşunlar isə bilmir. Biz sakitik, döyüşçülər isə narahatlıq keçirirlər. Əgər biz səma hadisələrinin səbəblərini bilsək, yerdə rahat yaşayarıq". Bundan sonra, yəni 1259-cu ildə Marağa şəhərinin qərb hissəsindəki təpənin başında rəsədxananın inşasına başlanmışdı. Nəsrəddin rəsədxana binalarının layihələndirilməsində və astronomik cihazların işlənib hazırlanmasında şəxsən iştirak etmişdi. Onun kəşf etdiyi, hazırladığı beş ədəd yeni konstruksiyalı astronomik cihaz və beş ədəd köhnə cihaz rəsədxanada qurulmuşdu. Rəsədxananın nəzdində 400 000 kitabı olan kitabxana və rəsədxana üçün kadrlar hazırlayan məktəb var idi. Rəsədxanada müsəlmanlardan savayı xristianlar, buddistlər, nestorianlar (xristianlıqdakı cərəyanlardan birinin üzvləri), yəhudilər, türklər, farslar, ərəblər, monqollar, çinlilər, gürcülər, tatarlar da çalışırdılar. Tusinin inşa etdiyi rəsədxana Şərqdəki bütün rəsədxanalardan ən əzəmətlisi idi. Orada aparılan elmi-tədqiqatlar sayəsində "Elxanilər astronomik cədvəli" ərsəyə gətirilmişdi. Həmin cədvəllər dörd kitabdan ibarət idi. Birinci kitabda yunan, fars, yəhudi, ərəb və türk təqvimlərinin təsvirləri verilmiş, bir təqvimdən digərinə keçid üsulları göstərilmişdi. İkinci kitab səma cisimlərinin hərəkətinə və onların ekliptik koordinatlarının tapılmasına həsr olunmuşdur. Üçüncü və dördüncü kitablarda astrologiya məsələləri işıqlandırlımışdır.*

*Hülakü xanın tələbi ilə astronomiya sahəsində seçilib-sayılan alimləri - Dəməşqdən Müvandəddin Ordini, Mosuldan Fəxrəddin Marağayini, Tiflisdən Fəxrəddin İxlatini və Qəzvindən Nəcməddin Dəbiranini Marağaya dəvət etmişdi. Marağa rəsədxanasında Kütbəddin Şirazi, Şəmsəddin Şirvani, Cəmaləddin Buxari, Fao Mun-il kimi məşhur alimlər fəaliyyət göstərirdilər. Yazılanlara görə, həmin vaxtlar astronom Cəmaləddin Buxari Ugedey xanın hökmdarlıq etdiyi dövlətin paytaxtı Pekində rəsədxananı Marağa rəsədxanasında istifadə olunan cihazların cizgiləri əsasında tikib istifadəyə verə bilmişdi.*

*Müasir alimlərin bir çoxu Nəsrəddin Tusini ilk öncə riyaziyyatçı kimi tanıyır. Onun əsərləri yalnız Şərq ölkələrində deyil, həm də Avropa ölkələrində həndəsə və triqonometriyanın inkişafında böyük rol oynamışdır. Tusinin ərəb dilində nəşr etdirdiyi "Evklidin "Başlanğıc" əsərinin şərhi" kitabı onun Avropada məşhurlaşması üçün*

*güclü təkan olmuşdur. Tusi "Bağdadın tarixi", "Evklidin optikası", "Göy qurşağının öyrənilməsi haqqında traktat", "Qiymətli daşlar haqqında traktat", "Təbabət qanunları", "Dövlət maliyyələri haqqında traktat", astrologiyaya dair "Xoşbəxt günlərin seçilməsi" əsərlərinin müəllifi kimi də məşhurdur. Onun kitabları Bakının, Parisin, Berlinin, Vyananın, Oksfordun, Kembricin, Leypsiqin, Münhenin, Florensiyanın, Qahirənin, İstanbulun, Moskvanın, Sankt-Peterburqun, Kazanın kitabxanalarında və elmi mərkəzlərində saxlanır. Tusi Şərq aləmində etikanın əsaslarına dair "Əxlaqi-Nasir" kitabı ilə məşhurlaşmışdır. Həmin əsərdə müəllif "Söz demək qaydaları haqqında" bölümündə yazır: "Bir filosofdan soruşurlar: "Nə üçün az danışır, çox qulaq asırsan?" Dedi: " Çünki mənə iki qulaq veriblər, bir dil, yəni: iki eşit, bir de". ( 20, s.163)*

*Nəsrəddin Tusi müsəlman intibahının ən böyük şəxsiyyətlərindən biri kimi öz yaradıcılığında Yaxın və Orta Şərqin hər üç intibah zonasını - ərəbdilli, farsdilli və türkdilli intibah zonalarını birləşdirə bilmişdir.*

*Qədim yunan riyaziyyatçısı Evklidin iki paralel xəttin fəzada kəsişməsi haqqında beşinci postulatının həllində Nəsrəddin Tusinin əvəzsiz xidməti olmuşdur. Nəsrəddin Tusinin əsərlərinə istinadən çox sayda elmi kəşflər edilmişdir. Bunlara ingilis astronomu, fiziki İsaak Nyutonun mexanika qanunları, alman astronomu İohann Keplerin səma mexanikası, rus riyaziyyatçısı Nikolay İvanoviç Lobaçevskinin qeyri-Evklid həndəsələrinə aid əsərləri və s. misal göstərmək olar. Kazan Universitetinin rektoru, professor N.Lobaçevski Nəsrəddin Tusinin elmi nailiyyətlərindən yaradıcılığında faydalanmaq məramı ilə universitetin professoru, azərbaycanlı Kazım bəydən Tusinin astronomiyaya aid bir neçə əsərini fars dilindən rus dilinə çevirməyi xahiş etmiş və Kazım bəy də bu böyük astronomun xahişini yüksək keyfiyyətlə yerinə yetirmişdi.*

*ABŞ-ın Kolumbiya Universitetinin professoru C.Saliba "İslam astronomiyasının inkişafında Marağa məktəbinin rolu" əsərində yazır ki, Şərq astronomlarının təklif etdikləri Kainat modeli əslində Kopernikin təklif etdiyi müvafiq modeli müəyyənləşdirmişdir. Marağa məktəbinin nailiyyətlərinə həsr olunmuş məqalələrin müəlliflərinin fikrincə, Kopernikin səbəb olduğu elmi inqilaba görə bəşəriyyət marağalıların fəaliyyətinə öz minnətdarlığını bildirməlidir. Ona görə ki, Kopernikin marağalıların ən yaxşı nümayəndəsi olması şəksizdir.*

*Onun fəlsəfi görüşlərinin mərkəzində dünyanın varlığı məsələləri, hüquq və mənəviyyat, dövləti idarəetmə və elmləri təsnifləşdirmə, ailədə xoş əxlaq tərbiyəsi, münasibətlərin təkmilləşdirilməsi problemləri əsas yer tutur. Tusinin fikrincə, dünya iki şeydən əzab çəkir: birincisi, ölkədə istibdad üsulu hakim olanda, ikincisi, ölkə özbaşına qalanda.*

*Tusi 25 iyun 1274-cü ildə Bağdad şəhərində dünyasını dəyişmişdir. Onun üç oğul övladı qalmışdı. Sədrəddin Əli, Əsiləddin Həsən və Fəxrəddin Əhməd. İndi də Həmədan. Naxçıvan və Marağada Tusi nəslindən bir çox azərbaycanlı yaşayır, tusilərdən olduqları ilə fəxr edirlər.*

*Nəsrəddinin nəvə-nəticələri XIV əsrdə daimi yaşayış yeri kimi Ordubadı seçmişdilər. Səfəvilər dövlətində onlara böyük dövlət vəzifələri tapşırılmışdı. Hazırda Tusinin həyatda olan nəsilləri Azərbaycanda və İranda məskunlaşmışlar.*

*Bağdadda imam Museyi Kazımın məzarının yanında bir məzar var. Onun sinə daşının üzərində gözəl xətlə aşağıdakı sözlər yazılmışdır: "Dinin və xalqın yaxın dostu, elm ölkəsinin şahı". Azərbaycanın böyük oğlu, görkəmli filosof, astronom və riyaziyyatçı, tarixçi, maliyyəçi, hüquqşünas Məhəmməd ibn Həsən Nəsrəddin Tusi bu məzarda əbədiyyətə qovuşmuşdur.*

*Xacə Nəsirəddin Məhəmməd Tusi vəfat etdikdən sonra rəsədxananın işi onun övladları Sədrəddin Əli və Əsiləddin Həsən tərəfindən (1317-ci ildə vəfat etmişdir) davam etdirilmişdir. (5, s.115)*

Dövlət müstəqilliyinin bərpasından sonra yazılmış Azərbaycan tarixinə aid kitablarda XI və XIII əsrdə yürüş etmiş səlcuqlar və tatarlara fərqli yanaşma mövcuddur. Məsələn, S.Əliyarlının redaktorluğu ilə 1996-cı ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabında "Səlcuqlara aid olan fəsil "Səlcuq türkləri və Azərbaycan" adlandırılaraq qeyd olunur ki, XI yüzilliyin ortalarında Yaxın və Orta Şərqin tarixində mühüm dönüş başladı. Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər əraziləri əhatə edən Böyük Səlcuq imperatorluğu yarandı. Bu dövlət, ümumiyyətlə səcuq türklərinin axını ümumdünya tarixnin gedişində fəal təsir göstərmiş, yaxın və Orta Şərqin etnik, hərbi-siyasi və ictimai-iqtisadi tarixində dərin iz buraxmişdi". (3, s.214)

Həmin kitabda tatarlarla bağlı olan fəsil "Moğol basqıları çağı, iqtisadi dağıntılar" adlanır. Həmin fəsil bu cümlələrlə başlayır: "XIII yüzilliklərdə Azərbaycan xalqı böyük bir sarsıntı yaşamış oldu. Xarəzimşah dövlətini dağıtdıqdan sonra moğollar İranı keçib Azərbaycana soxuldular". (3, s.271) Daha sonra işğalla bağlı hadisələr ərəb mənbələrinə istinadən qeyd edilir.

Müasir dövrdə səlcuqlara mövcud olan yanaşmanın tatarlara da tətbiq olunması fikrimizcə Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqlarına cavab verir.

Artıq bu sahədə müəyyən işlər görülməkdədir. Məsələn, 2012-ci ildə nəşr olunmuş 8-ci sinifləri üçün "Azərbaycan tarixi" dərsliyi ilə bağlı TQDK da hazırlanmış yekun rəydə deyilir: "Səhifə 43-44-də "Monqol sərkərdələri elçilərdən birini öldürüb, digərlərini məcbur etdilər ki, onları gizli yolla Dərbənddən şimala keçirsinlər" cümləsinin "Dərbəndin hücumla alınmasının çətinliyini başa düşən monqollar Azərbaycanı Dərbənddən yan keçməklə şimala gedən gizli dağ cığırlarının yerini öyrənərək tərk etdilər" cümləsi ilə əvəz edilməsi məsləhətdir.(9)

Fikrimizcə gələcəkdə XIII-XVI əsrlərə aid dərsliklər yazan tarixçilərin problemə bu cür yanaşmasına ciddi ehtiyac var.

## Azərbaycan xalqının etnogenezində tatar-monqolların rolu

Azərbaycan xalqının etnogenezi məsələsi çar Rusiyası və sovet dövründə saxtalaşdırıldığından uzun müddət mübahisəli mövzulardan biri olmuşdur. Azərbaycan xalqının etnogenezi ilə bağlı müasir dövrdə müxtəlif konsepsiyalar mövcuddur. Bunun əsas səbəbi kimi Azərbaycanın insan əmələgəlmə prosesinin baş verdiyi əlverişli coğrafi əraziyə malik olması, strateji cəhətdən şimaldan cənuba, şərqdən qərbə gedən yolların üstündə yerləşməsi, tarix boyu müxtəlif işğalçı yürüşlərə məruz qalması və işğalçı siyasətə uyğun olaraq zaman-zaman müxtəlif etnosların bu əraziyə köçürülməsi və digər halları göstərmək olar.

Azərbaycan xalqının etnogenezinə düşmən mövqedən yanaşan rus, fars, erməni tarixçiləri tarixi saxtalaşdıraraq qeyd edirlər ki, Azərbaycan ərazisində yaşayan türk etnosu yerli deyil gəlmədir. Onlar iddia edirlər ki, XI əsrə qədər Azərbaycan ərazisində türk tayfaları yaşamamış, XI əsrdə səlcuq türklərin gəlişi ilə burada türklər yaşamağa başlamışdır. Sovet tarixşünaslığında da Azərbaycan xalqının etnogenezi ilə bağlı belə fikir təbliğ olunurdu ki, guya Azərbaycan ərazisinə türklər əsasən XI əsrdən başlayaraq, yəni səlcuq türklərin hücumu ilə yaşamağa başlamış, bu dövrə qədər türk etnosları həmin ərazidə mövcud olmamışdır.

Sovet rejiminin imperiya siyasətinə xidmət edən bu cür fikirlər Azərbaycan xalqının babalarının bu ərazilərin yerli sakinləri olmaması fikirini yaradırdı. Bu cür fikrlər sonradan erməni separatçılığı üçün müəyyən ideoloji baza rolunu oynamış və Cənubi Qafqaz ərazilərinə köçürülmüş əhali olan ermənilər özlərini yerli, yerli əhali olan azərbaycanlıları isə gəlmə hesab etməklə işğalçı siyasət yeritməyə başlamışlar.

Azərbaycan alimləri xalqın etnogenezi ilə bağlı saxta konsepsiyaları ifşa etmək sahəsində hələ sovet dövründən başlayaraq müsbət işlər görmüşlər. Bu sahədə akademik Z.Bünyadov, S. Əliyarov, M. İsmayılov, Q. Qeybullayev və başqaları çoxlu sayda məqalə və kitablar yazmışlar. Onlar faktlarla sübut etmişlər ki, Azərbaycanda qədim zamanlarda yerli türk tayfaları yaşamış, yerli və gəlmə türk tayfalarının qaynayıb qarışması nəticəsində Azərbaycan xalqı formalaşmışdır.

Bu əsərlərdə Azərbaycanda yerli türk tayfaları ilə yanaşı gəlmə türk tayfalarının, xüsusilə səlcuqların adları qeyd olunsa da, tatar-monqolların Azərbaycan xalqının etnogenezində rolu diqqətdən kənarda qalmışdır. Səlcuqlardan sonra Azərbaycana gəlmiş tatar-monqollara münasibət hələ də ziddiyyətli olaraq qalır.

Hazırda bu fikirə birmənalı yanaşılmasa da, əvvələr yazılmış Rusiya tarixində 1480-ci ildə Qızıl Orda xanı Əhməd xanın geri qayıtması ilə rusların Qızıl ordadan asılılığına son qoyulduqu bildirilir. Lakin Azərbaycan ərazisinə gəlmiş tatar-monqollar heç yerə qayıtmayaraq yerli əhali ilə qaynayıb qarşması təkzib olunması mümkün olmayan faktdır. Deməli Azərbaycan xalqının etnogenezində Səlcuq türklər kimi, tatar-monqollar da iştirak etmiş və onlar da xalqın tərkibinə daxildir. Qəribə olsa da xarici tarixçilər bu faktı qəbul etdiyi halda, bizim bəzi

tarixçilərimizin bu məslədə inkarçı mövqedən durmaqda davam edirlər. Dövlət müstəqilliyinin bərpasından sonra nəşr olunmuş kitablarda ziddiyyətli faktlara nəzər salaq.

Ali məktəblər üçün "Azərbaycan tarixi" dərsliyində fəsillərdən biri "Azərbaycanda monqol hakimiyyəti" adlanır və onlar haqqında işğalçı barədə nə qədər pis fikirlər demək mümkünsə yazılır. Daha sonra isə qeyd olunur ki, "XIII əsrin ortalarında Hülakü xanın yürüşləri dövründə Azərbaycana 20-dən artıq monqol-türk tayfaları gəldi...Toponomik materiallar və ilk mənbələrin məlumatı sulduz-çobani, cəlairi, cığatay, kurqan, sukait, corat, budat, oyrat, tatar, dolan, onqut və s. tayfaların həmin dövrdə Azərbaycana gəlib məskunlaşması və yerli əhali ilə qaynayıb-qarışması əhalinin etnik tərkibinə təsir etdi və ölkədə türkdilli əhalinin sayının artmasına da səbəb oldu. Artıq XIV əsrdə türklər Elxanilər dövlətində mühüm, Azərbaycanda isə əsas yer tutrdu. Məhəmməd Naxçivaninin məlumatına görə, bu dövrdə əsas dövlət sənədləri 3 dildə (ərəbcə, farsca və türkcə) tərtib edilir və hər xalqa öz dilində, o cümlədən türklərə-türk dilində (uyğur əlifbasında) göndərilirdi." ( 2, s.338)

Səvəfilərin mənşəyi ilə bağlı bir fakt da Qızıl Ordanın türk dövləti olduğunu bir daha sübut edir. T.e.d.,prof. O. Əfəndiyev yazır: " Z.B.Toqan razılaşırdı ki, Şeyx Səfi dövründə Ərdəbil əhalisi türklərdən ibarət idi. "Ərdəbil sakinlərinin əksəriyyəti və xüsusilə Qızıl Orda və Krım vilayətinə səfər etmiş Şeyx Səfi şagirdləri həqiqətən türkcə danışırdılar". (13, s. 264) Nəzərə almaq lazımdır ki, Şey Səfiəddin 1254-1334-cü illərdə, yəni tatar-monqolların Azərbaycanda hakimiyyəti dövründə yaşamışdır.

Abbasqulu Ağa Bakıxanov bu məsələ barədə yazmışdı: "Hülaku xan bin-Tuluy bin-Çingiz xan, öz qardaşı Mənku qaan zamanında İrana gəldi. Hicri 656-cı (=1258) ildə xəlifə Müstəsim Billahı [İstinad: Müstəsim Billah - abbasilərdən otuz yeddinci və sonuncu xəlifədir (640-656 = 1242- 1258).] öldürərək abbasilər dövlətini dağıtdı. Sonra, özü ilə bərabər gətirdiyi 200000 türk ailəsini müxtəlif yerlərdə yerləşdirdi. İran səltənətini öz əlinə alıb möhkəmləndirdi. Lurlar və kürdlərdən başqa, İran köçəri qəbilələrinin əksəri bunların nəslindəndir. (7, s. 82)

Dərsliklərin birində tatarlar monqollar deyil moğollar adlandırılaraq işğalçı, qaniçən kimi göstərilir. Lakin qeyd olunur ki, "Moğol çağının gətirdiyi bütün sarsıntı, dağıntı və qırğınlara baxmayaraq Azərbaycan tutduğu mədəni yeri əldən verməmişdi...Marağa rəsədxanası XIII yüz il Azərbaycan elminin hansı yüksəklikdə ucaldığının başlıca göstəricisi sayılır". (3, s.333,335) Bundan başqa yazılır ki, "Moğolların çağında Azərbaycan, İran, Anadolu və başqa ölkələrə yeni köç axını oldu...Yaxın və Orta Şərq ölkələrinə moğol çağında köçüb gələnlərin sayı 1 milyona çatırdı (bəzi tarixçilərin fikrincə bu rəqəm 2 milyona yaxın idi). Bunlardan yüz minlərlə yeni türk Azərbaycanda yerləşdi. Nəsəvi, Rəşiddədin, Vəssaf tarixinə görə gələnlərin çoxu moğol deyil, Uyrat (moğollaşmış uyğurlar), Qıpçaq, Sulduz, Cəlayir, Çoban, Tatar, Padar (Onoqur oymaklarından biridir), Qaraqoyunlu, Ağqoyunlu, Cavanşir və başqa türk uruqları idi...Qaraman bəyliyi başçısı Mehmet bəy Konyanı tabe etdikdən sonra 15 may 1277 (10 zilhiccə 675)-ci ildə belə bir buyruq vermişdi: "Şimdən gerü divanda, dərgahda, bargahda, məclisdə və meydanda türkcədən başqa dil kullanılmayacaqdır".(3, s.295,333)

Faktlar sübut edir ki, təkcə Hülakü xanın vaxtında deyil, tatar-monqolların hər üç yürüşlərində Azərbaycana çoxlu sayda türk tayfaları gəlib. Azərbaycana tatar-monqolların ilk yürüş zamanı onların tərkibinin türk tayfalarından ibarət olmasının aşağıdakı tarixi mənbə bir daha sübut edir. İbn Əl-Əsir (1160-1234) "Əl-Kamil Fi-T-Tarix" əsərində tatarlara qarşı düşmən fikirlər yazsa da onların türk olduğunu sübut edib. İbn Əl-Əsir öz əsərinin "Tatarların Azərbaycana gəlməsi " bölümündə yazır: "Özbəyin (Özbək ibn Pəhləvan Azərbaycan Atabəylər dövlətinin sonuncu hökümdarı (1210-1225) qullarında olan Aquş (Nəsrəddin Aquş Atabəy Özbəyin Arandakı hakimi) adlı bir türk gəlib bunlara qoşuldu. Bu Aquş dağlarda və düzənlərdə yaşayan türkmənlər, kürdlər və qeyri əhalini bir yerə yığıb öz ətrafına çox adam topladı. Ondan sonra tatarlara qoşulmaq məqsədilə onlara bir adam göndərdi. Tatarlar da onun bir irqdən, bir nəsildən olduğunu nəzərə alaraq, təklifi qəbul etdilər." (6, s.140)

Bu fakt bir daha sübut edir ki, tatar-monqolların ilk yürüşündə də Azərbayana gələn qüvvələrin əksəriyyəti türklər olmuşlar. Lakin qəribədir ki, "Azərbaycan tarixinə dair qaynaqlar" kitabının müəllifləri qeyd edirlər ki, İbn Əl-Əsir monqolları tatarlar adlandırıb. Yəni guya bunların əsil adı monqollardır, lakin ərəb müəllifi bunları yanlış olaraq tatar adlandırıb. Fikrimizcə müəlliflər bu qeydi "Azərbaycan tarixinə dair qaynaqlar" kitabı nəşr olunan dövrün ictimai-siyasi vəziyyətini nəzərə alaraq göstərsələr də, hazırda bu məsələlərə obyektiv yanaşmağa ciddi ehtiyac var.

Azərbaycanda tatar etnoniminin adını əks etdirən oronimlərdən aşağıdakılarını göstərmək olar: Tatar kəndi (Cəbrayıl rayonu), Tatar düzü (Cəbrayıl rayonu, Nüsüs kəndi), Tatar dərəsi (Cəbrayıl rayonu, Kürdlər kəndi),

Tatar qaya (Laçın rayonu, Haqnəzər kəndi), Tatarlılar yaylağı (Laçın rayonu, Alxaslı kəndi), Tatargöl (Abşeron yarımadasında göl), Tatar çayı (Şəmkir rayonu), Tatarlı kəndi (Şəmkir rayonu), Tatarməhlə kəndi (Neftçala rayonu) (29, s.112) , Tatar yalı (Dilican şəhərində məhəllə), Tatar Təzəkəndi – (İrəvan quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunda kənd) (8,s. 16) . Bu siyahı uzatmaq da olar.

Tatar-monqol adlarının əksəriyyəti tarixən Azərbaycan xalqının isim adlarına çevrilib. Görkəmli Azərbaycan yazıçısı Cəfər Cabbarlı "Oqtay eloğlu" əsərinin qəhramanına Çingiz xanın oğlu adını verməsi də təsadüfü deyil.

Yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olar ki, tatar-monqolların yaratdıqları dövlətlərin hökümdarlarının, şəhərlərinin adlarının mütləq əksəriyyəti türk adları olduğundan Azərbaycana XIII əsrdə üç dəfə yürüş etmiş tatar-monqolların da əksəriyyəti türk tayfaları olmuş və yerli türk tayfalalarla qaynayıb qarışaraq etnogenez prosesində iştirak etmişlər.

## Nəticə

Hazırda tatarların tarixdəki yeri və rolu ilə son illər bu sahədə ciddi işlər görülməkdədir. Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası (Türk Şurası) dövlət başçılarının Naxçıvan sammitində Beynəlxalq Türk Akademiyası yaradılması, 31 may 2018-ci il tarixində AMEA ilə Monqolustan Elmlər Akademiyası arasında elmi əməkdaşlıq haqqında saziş imzalanması və digər işlər tatar-monqolların tarixinə aid obyektiv tədqiqatların ortaya çıxmasına münbit şərait yaradır.

Beynəlxalq Türk Akademiyası bu sahədə bir sıra müsbət layihələr həyata keçirib. Baş qərargahı Qazaxıstanın paytaxtı Astanada yerləşən Akademiya Monqolustan tərəfi ilə birgə Şiveet Ulan külliyyəsi də daxil olmaqla bir neçə yerdə ciddi tədqiqatlar aparmağa başlayıb. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Rusiyadan dəyərli türkoloq və arxeoloqların iştirakı ilə Beynəlxalq Türk Akademiyasının təşkil etdiyi "Tanrı dağından Ötükənə: Böyük Çöl xalqlarının tarixi və mədəni dəyərləri" adlı beynəlxalq ekspediyanın gördüyü işləri buna misal göstərmək olar. Bu ekspedisiyanın həyata keçirdiyi layihə haqqında yazıda qeyd olunur ki, "Bəlkə çoxlarına qəribə görünə bilər, amma bizi Monqolustana bağlayan qəribə hisslər və sıx tellər var. Dünyada Monqolustan deyincə, ilk ağla gələn Çingiz xan və böyük müharibələr olsa da, biz türklər üçün bu torpaqlar həm də ana yurdumuz, türk mədəniyyəti və dövlətçiliyinin təşəkkül tapdığı yer, ilk türk yazılı abidələrinin bulunduğu müqəddəs məkandır... Bəli, bura Türk adının tarixə yazıldığı ilk müqəddəs məqam-Bilgə Xaqan, Kültegin daş kitabələrinin dünyanın köksünə sancıldığı yerdir! Bura Ata yurdumuz Orxon vadisidir! Bura qədim Türk dili, mədəniyyəti, tarixi və dövlətçiliyinin öyrənilməsi baxımından əvəzsiz, müqəddəs bir məkandır!"

Yazıda qeyd olunur ki, hazırda Monqolustan ərazisində olan Şiveet Ulandan ilk türk yazılı abidələrinin tapıldığı məkandır. Burada olan Orxon vadisi türklərin bu ərazilərdə böyük bir sivilizasiya qurmasını təsdiqləyən faktlarla zəngindir. Elmə məlum olan ilk türk yazı mənbələrini-Bilgə Xaqan, Kültegin və Tonyukuk kitabələrini TİKA təşkilatı qoruma altına alıb. Abidələri dağıntılardan qorumaq üçün tikilən səhra muzeyində yazıların orijinalları saxlanılır. Yazıda daha sonra göstərilir ki, hələ mediayaya açıqlanması məsləhət görülməyən əsrarəngiz tapıntılar var. Qarşıdakı ildə tədqiqatların miqyasının genişləndirilməsi və bu tapıntıların da ictimaiyyətə açıqlanması gözlənilir. Yeni tapıntıların içərisində qiymətli yazılı mənbələrin də olduğu güman edilir."

Yazıda türklərlə monqolların eyni etnik kökə malik olması ilə də bağlı olan fikirlər də maraq doğurur. Qeyd olunur ki, "Monqol dili də türk, tunqus, koreya və yapon dilləri kimi Altay dillər qrupuna daxildir...Yeri gəlmişkən, monqollar sovetlərin təsirinə düşdükləri zamana, yəni kiril əlifbasını qəbul edənə qədər qədim türklərdə, Orxon kitabələrində olduğu kimi yuxarıdan aşağı yazır və uzun müddət qədim uyğur əlifbasını istifadə edirdilər...Monqolca-qazaxca böyük lüğətin müəllifi, tədqiqatçı və arxeoloq Napil Bazılhan da xeyli sözlərin ortaq mənşəyinin olduğu, zaman keçdikcə fərqlərin ortaya çıxdığı qənaətindədir. Əksər monqol tarixçilər də türklərlə monqolların qohum, Çingiz xanın da ortaq hökmdarımız olduğu qənaətini paylaşırlar". (17)

Asiya tarixinə aid ən nüfuzlu mənbələrdən biri sayılan "Monqolların gizli tarixi" kitabını Azərbaycan dilinə tərcümə edən f.ü.e.d., prof. Ramiz Əskər kitaba yazdığı ön sözdə tüklərlə monqolların yaxınlığı haqqında deyir: "...türkologiya ilə monqolistika addımbaşı qarşılaşır, çarpazlaşır, üst-üstə düşür, qovuşur və bəzən heç ayrıla bilmir. Eyni dil ailəsinə mənsubluq, oxşar ictimai-siyasi, tarixi inkişaf və həyat tərzi, bənzər ordu sistemi, yüzlərlə ortaq termin və söz, türk və monqol xalqlarının etnogenezində iştirak etmiş eyni tayfa birlikləri, bu xalqlara məxsus olan eyni fütuhat və cəngavərlik ruhu, dövlət qurma bacarığı, eyni ox və yay, eyni qılınc və at və s. müştərək cəhətlər varkən, bunların tədqiqi, araşdırılması çox vacib ikən, Azərbaycanda monqolistikanın inkişaf etməməsi təəssüf doğurmaya bilməz".( 18, s.5)

Hazırda Azərbaycan xalqına məxsus bəzi adlara Monqol xalqında da rast gəlmək mümkündür. Məsələn, Çıngiz (Dəniz), Oqtay (Başa düşən), Timur, Teymur (Dəmir), Tərxan (Bacarıqlı), Xaqan (Böyük idarəçi ) və bu kimi çoxlu sayda kişi adları hər iki xalqda var. Monqol qadın adları içərisində çiçəklə bağlı çoxlu sayda adlar var ki, bu adların da oxşarı türk xalqlarında mövcuddur. Məsələn, Çeçeq (Çiçək) Alimçeçeq (Alma çiçəyi), Amarçeçeq (Sakit çiçək), Badamçeçeq (Badam çiçəyi), Bayançeçeq (Varlı xanım çiçək), Göyoçeçeq (Gözəl çiçək), Zambaqa (Zambaq gülü), Tümençeçeq( Min çiçək) və s. Buradan belə nəticə çıxarmaq olar ki, türk xalqları ilə monqol xalqı arasında yer, adam adları və dil baxımından müəyyən yaxınlıq var. Müəyyən yaxınlıq olsa da fərqlər də mövcuddur. Məsələn, bir çox monqol adları var ki, onlar türk adlarından fərqlənir. Məsələn, hazırda Monqolstan rəhbərliyində təmsil olunan Xaltmaaqiyn Battulqa, Jarqaltulqın Erdenebat, Şarxuu Lxaçinjav, Badamdorj Batxişiq, akademik Duqer Reqdel, arxeoloq Çuluun Sampildondov və başqalarını göstərmək olar.

Yekun olaraq mövzu ilə bağlı aşağdıkı fikirləri irəli sürmək mümkündür:

- Azərbaycana XI və XIII əsrdə yürüş etmiş səlcuqlar və tatarlara fərqli yanaşmanın kökünü bəlkə də səlcuqlardan fərqli olaraq tatarların Rusiyanı işğal etməsi və 300 il əsarətdə saxlamsı, tatarlara rus və sovet tarixşünaslığındakı düşmənçiliyin Azərbaycan tarixşünaslığına mexaniki şəkildə keçməsində axtarmaq lazımdır.
- *Hazırda bəzi müəlliflər belə hesab edirlər ki, monqol-tatar sözündən tatar sözünü çıxarmaqla guya tatarları hücumlardan sığortalayırlar. Bunun ardınca onlar gen-bol monqollar haqqında düşmən fikirlərdən istifadə etməsi fikrimicə sadəlövlük olmaqla yanaşı, həm də elmi cəhətdən səhvdir. Onlar öz aləmlərində belə düşünürlər ki, bu toplumu monqol adlandırmaqla, onların Azərbaycan xalqına heç bir aidiyyatı olmadığını sübut edirlər. Bundan sonra isə arxayın onlar haqqında qərəzli fikirləri kitabdab kitaba köçürürlər. Lakin onlar unudurlar ki, onsuz da türklərə düşmən olan qüvvələr kiminsə bu toplumu monqol adlandırmasından asılı olmayaraq tatar-monqolların əksəriyyətinin türk olduqları bizdən yaxşı bilirlər. Bu toplumu monqol adlandıraraq onların haqqında qərəzli, düşmən mövqedən əsərlər yazan müəlliflərin əksəriyyəti, bəlkə də özləri də bilmədən bu cür yazılarla düşmən təbliğatına kömək etmiş olurlar.*
- Müasir dövrdə Rusiyada, Tatarstanda, Qazaxstanda və digər ölkələrdə bu mövzuda çoxlu saylı alternativ əsərlər yazılsa da Azərbaycanda bu sahədə irəlləyişlər demək olar ki, yoxdur. Fikrimizcə Azərbaycan tarixçilərinin də bu məsələ bardə alternativ əsərlər yazmasının vaxtı çoxdan çatıb.
- Azərbaycan tarixinin xarici ölkə, o cümlədən rus tarixçiləri tərəfindən saxtalaşdırılması haqqında çoxsaylı faktlar mövcuddur. Tarixin saxtalaşdırılması prosesini bumeranqa bənzətmək olar. Yəni sonda saxtalaşdırıcının özünə qayıdır. Buradan belə nəticə çıxarmaq olar ki, başqa xalqın tarixi saxtalaşdıran xalqın özünün də tarixi saxtalaşdırılmağa məhkumdur. Araşdırmalar sübut edir ki, rus xalqının tarixi də saxtalaşdırılmaya məruz qalmışdır. Müasir dövrdə bəzi rus tarixçiləri Rusiyanın XIII-XIV əsrlər tarixnin IV İvan Qroznı dövründə, XIX əsrin əvvələrdə və sovet dövründən bilərəkdən saxtalaşdırıldığını iddia edirlər.
- Fikrimizcə dərslik yazılarkən Azərbaycan Respublikasının milli təhlükəsiliyi baxımından məsələlərə yanaşılmasına ehtiyac var. Əgər miladdan əvvəlki tarixi deyil, yalnız milad tarixinin başlanğıcından işğallarçı yürüşləri dərsliklərdə təqdim olunmasına fikir versək görərik ki, burada bizans, rus, gürcü və s. qüvvələrin işğalçı hücumlarından, həmçinin ərəb, səlcuq türklərin yürüşlərindən fərqli olaraq monqollara aid ən kəskin faktlar dərsliklərər salınıb. Dərsliklrdə dövlətçilik maraqlarından yanaşmaqla, ərəb, səlcuq yürüşlərinə aid kəskin faktların dərsliklərə salınmamasını fikrimizcə düzgün hesab etmək olar. Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan tarixnə aid dərsliklərdə bu kimi mövzular işıqlandırarkən düzgün olaraq dövlətçilik maraqlarına əməl edildiyi halda çox təəssüf ki, monqol-tatarlara aid yazılarda bunlara əməl olunmur. Fikrimizcə monqol-tatarların yürüşlərinə də bu prizmadan yanaşılması vacibdir.
- Əgər Rusiyada tatar-monqolların varisləri olan tatarlar, başqırdlar, çuvaşlar, kalmıklar və digərləri müasir dövrə qədər gəlib çıxmışsa, Azərbaycanda tatar-monqollar özlərinə yaxın olan yerli türk dilli tayfalarla qaynayıb qarışaraq Azərbaycan xalqının tərkib hissəsinə çevrilmişlər. Fikrimizcə Azərbaycan xalqının tərkib hissəsi olan tatar-monqollara qərbi Avropa, rus, sovet, ərəb, fars mənbələrinə əsalanaraq onlara olan qərəzli, düşmən fikirlərlin dərsliklərə salınmasına son qoymağın vaxtı çoxdan çatıb.
- Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra erməni müəlliflərinin tarixmizə aid saxtakarlıqlarının ifşası ilə bağlı xeyli işlər görülüb. Lakin ərəb müəlliflərinin orta əsrlər tariximizə aid qərəzli fikirlərinə qarşı demək olar ki, hələlik heç bir iş görülməyib. Dini təssübkkeşliyi bir qədər kənara qoysaq görərik ki, Xürrəmilərə, tatar-monqollara aid əksər ərəb mənbələri obyektiv deyil, subyektiv xarakter daşıyır və qərəzlidir. Ərəb xilafətinin varlığına son qoymuş tatar-monqolların tarixinin onlara düşmən olan ərəb mənbələri əsasında, digər alternativ mənbələr olmadan öyrənilməsi, həmin mənbələrdəki müddəaları bir başa dərsliklər daxil edilməsi fikrimizcə tamamilə səhvdir.
- *Tatarlara düşmən mövqedən yanaşan ərəb müəlliflərinin əsərlərindəki faktlara tənqidi yanaşılmasına və mənbələrindəki qərəzli fikirlərin dərsliklərə salmasından imtina etməsinə ciddi ehtiyac var. Bu fikri həmçinin Xürrəmilərə qarşı düşmən olan ərəb mənbələrinə də aid etmək olar.*
- *Rəşid bəy İsmayılovun 1923-cü ildə Bakıda nəşr edilmiş 1993-cü ildə təkrar çapdan çıxmış "Azərbaycan tarixi" kitabının bir bölümü "Azərbaycanda tüklərin və monqolların istilası" adlanır. (s.54) Hazırda nəşr olunan kitablarda türklərin istilası kimi qeyri-düzgün ifadədən imtina edilərək düzgün olaraq bu mövzular "Səcuqların yürüşləri", "Əmir Teymurun yürüşü" və s. başlıqlar altında verilsə də, "Monqol işğalı" başlıqları qalmaqdadır. Fikrimizcə bu başlığın da "Azərbaycana tatar-monqolların yürüşləri" kimi verilməsi daha düzgün olar.*
- *Fikrimizcə dərsliklərdə səlcuq yürüşlərinə Azərbaycan xalqının etnogenezi, milli dövlətçılık mövqeyindən yanaşıldığı kimi, tatarlara eyni mövqedə yanaşılmasına ciddi ehtiyac var.*

İstifadə edilmiş ədəbiyyat

--------------------------------


1. Azərbaycan tarixi. 3 cilddə. 1-ci cild. Bakı 1973, 548 s.
2. Azərbaycan tarixi(ən qədim zamanlardan XX əsrədək) I cild.Bakı,Azərnəşr, 1994, 680 s.
3. Azərbaycan tarixi.Uzaq keçmişdən 1870-ci ilə qədər.Azərbaycan nəşriyytı,Bakı 1996-cı il.
4. Azərbaycan tarixi. Yeddi clddə. II cild (III-XIII əsrin I rübü). Bakı. "Elm". 2007. 608 səh. - 24 səh
5. Azərbaycan tarixi. 7 –cildlik. 3-cü cild.(XIII-XVIIIəsrlər) Bakı, Elm, 2007 592 s.
6. Azərbaycan tarixi üzrə qaynaqlar./ Tərtibçilər S.S.Əliyarov, F.P.Mahmudov və b.-Bakı-Azərbaycan Universiteti nəşriyyatı, 1989.- 328 s.
7. Bakıxanov A.Gülüstani-İrəm. Bakı, 2001,287
8. Bayramov İ. QƏRBİ AZƏRBAYCANIN TÜRK MƏNŞƏLİ TOPONİMLƏRİ. BAKI – “Elm” -2002
9. Dərsliklə bağlı TQDK-ya daxil olan qeydlər, iradlar və təkliflər əsasında hazırlanmış YEKUN RƏY. www.derslik.edu.az
10. Cəfərzadə Ə. “Bakı 1501…” Bakı, Yazıçı, 1981. 263 s.
11. Əlizadə Ə.Ə. Monqol istilasına qarşı Zaqafqaziya xalqlarının birgə mübarizəsi. SSRİ EA Azərbaycan filialının xəbərləri 1949, № 10
12. Əmir Teymurun vəsiyyətləri.Bakı, Azərnəşr 1991, 112 s.
13. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı. Azərnəşr, 1993, s.301.
14. Gevr J. Xacə şah. Bakı, Gənclik 1993,224 s.
15. İsmayılov Rəşidbəy “Azərbaycan tarixi”.Bakı,1993
16. Məmmədbəyli H.C. Nəsirəddin Tusi.Bakı,1998.
17. Məcidli F. Türklərin Kəbəsi, səhrada gizlənən tarix... Lent.az 02-05 may 2014
18. Monqolların gizli tarixi. Bakı, MBM, 2011, 360 s.
19. Nəfisi Səid “Azərbaycan qəhrəmanı Babək Xürrəmid”.Bakı;Elm,1990-128s.
20. Nəsirəddin Tusi “Əxlaqi Nasiri. Bakı 1989, 255 s.
21. Onullahi S. M. Təbriz kitabxanaları (X-XVII əsrlərdə). S. M. Kirov adına ADU-nun «Elmi əsərlər»i. KitabxanaĢünaslıq və biblioqrafiya seriyası, 1975, № 2, səh. 53-58.
22. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhəri. (Sosial-iqtisadi tarixi) “Elm” nəşriyyatı, Bakı -1982
23. Orucova Jalə Çingiz Xan milliyətcə kim olub?13/7/2015 [12:42] https://www.bizimyol.info)
24. Piriyev V. Z. Azərbaycan xalqının Çobanilərə qarşı azadlıq mübarizəsi tarixindən. «Azərb. SSR EA Məruzələri», 1971, № 4, səh. 65-69.
25. Piriyev V.Z. Azərbaycan hülakülər dövlətinin tənəzzülü dövründə (1316-1360).Bakı 1978.
26. Piriyev V.Z. Əbdülkərim Əli oğlu Əlizadə. ATEK-Az. Tarixi elek. Kitabxanası-20/12/2016 http://www.lib.az/persons/22
27. Qaraoğlu F. Tarixdə iz buraxanlar: Çingiz xan türk imiş (?)... Bakı xəbər qəz. 23 noyabr 2016
28. Qumilyov L.: “Damarlarımda Qızıl Ordanın qurucusu Cuçi xanın türk qanı axır” “Molodej Yakutii”, 30 mart 1989-cu il.Rus dilindən tərcümə edən Vilayət Quliyev. 525-ci qəzet 01may 2017
29. Salmanov Ç. Qubadlının yer-yurd adları ( toponimlər). Sumqayıt, “Azəri” nəşriyyatı, 2015, 264 s.
30. Şərifli M. X. XIII-XIV əsrlərdə Azərbaycanda ticarət və ticarət yolları. «SSRİ EA AzF Xəbərləri», 1944, № 2-3, səh. 50
31. Şərifli M. X.. Azərbaycan xalqının monqol istismarçılarına qarşı mübarizəsi tarixindən. Bakı, 1944.
32. Şükürov K.K. “Azərbaycan tarixi” Üç hissədə. II hissə.Ən qədim zamanlardan bizim günlərədək:Dövrlər, hadisələr, sinxronlaşdırılmış cədvəllər. Bakı, 1998-480 s.
33. Vilayəti Ə.Ə. Şah İsmayıl Səfəvidövründə İranın xarici əlaqələr tarixi.Bakı 1998, 421 s.
34. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. Bakı, Azərbaycan Kitab Palatası, 1992, 144 s.
35. Zəhirəddin Məhəmməd Babur. Baburnamə. Bakı 2011, 432 s
36. 27 Fevral, 2017 http://apa.tv/video/37942


**Rus dilində**


37. Али-заде А.А. К истории рудников и монетного обращения в Азербайджане в XIII -XIV вв. «Изв. Аз ФАП СССР», 1942,№ 7;
38. Али-заде А.А. Золотой Орды и государства ильханов за Азербайджан. «Изв. Аз ФАН СССР», 1946; №5.
39. Ализаде А.А. Борьба Золотой Орды и государства ильханов за Азербайджан. «Изв. АН Азерб. ССР»,1946. № 5.
40. Ализаде А.А. Борьба Золотой Орды и государства ильханов за Азербайджан (статья вторая). «Изв. АН Азерб. ССР»,1946, № 7.
41. Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв.Баку, 1956.

42. Ализаде А.А. Общность взглядов ученых Ирана и Азербайджана XI-XIV веков по вопросам социально-экономического характера (Низам-ал Мульк. Рашид ад-Дин и Мухаммед Иахчевани, статья 1-я), «Изв. АН Азерб. ССР, серия ИФП», 1968, № 1, səh. 47-55, 2-я статья «Изв. АИ Азерб. ССР, серия ИФП», 1969, № 1, səh. 31-50.27.
43. Ализаде А.А. Употробление тюркско-монгольских терминов в произведениях Рашид ад-Дина и Вассафа/ Грузинское источниковедение. Тбилиси.1971,Т 3
44. Армянские источники - Армянские источники о монголах. Извлечения из рукописей XIII-XIV вв. Перевод А. Г. Галстяна. М., 1962.
45. Атласи, Хади История-Сибири. -Казань: Татар. кн. изд-во, 2005. — С. 24-29. - 96 с.
46. Бабаян Л.О. Социально-экономическая и политическая история Армении в XIII-XIV веках. М., 1969.
47. Бартольд В. В. Двенадцать лекций по истории турецких народов Средней Азии. // Сочинения. т. V. -М.1968.- С.158.
48. Березин И. Тарханные ярлыки Тохтамыша, Тимур-Кутулука и Саадет-Гирея, с введением, переписью, переводом и примечаниями.-Казань, 1851 .-С. 18
49. Веллер М.И. Наш князь и хан.-М.:АСТ, 2015.-288с.(Серия: Странник и его страна)ISB.978-5-17-092628-2.
50. Вернадский Г. В. Монголы и Русь-Тверь-М.,1997-С68.
51. Владимирцов Б. Я. Общественный строй монголов. Л., 1934.
52. Владимирцов Б. Я Работы по истории етнографии монголских народов. Москва 2002. С.386;Vladimirtsov B., Le Regime Social des Mongols (Le féodalisme nomade), traduction par M. Carsow, Paris 1948, s. 115; Vladimirtsov B.Y., Moğolların İçtimai Teşkiltatı, Moğol Göçebe Feodalizmi, çeviren A. İnan, Ankara 1987 (2-ci nəşr.), s. 137-138.
53. Гулиев А.Н.,Мамедов Э.И. История Азербайджана.Баку, 1964 (учебник).
54. Гумилев Л. Н.. В поисках вымышленного царства.-М.,1970
55. Греков Б.Д., Якубовский А.Ю. Золотая Орда и её падение. -2-е изд. -М.-Л.: Изд-во АН СССР, 1950. -10,000 экз.
56. Грамота великого хана Гуюка Папе Римскому Иннокентию IV (1246 г.) Путешествия в восточные страны Плано Карпини и Рубрука.-М.1957.-С.220-221. Публикацию подготовил Ильяс Мустакимов, главный специалист ГАУ при КМ РТ. http://www.archive.gov.tatarstan.ru)
57. Гекеньян Х. Западные сообщения по истории Золотой Орды и Поволжья 1223-1556 гг. // Источниковедение истории Улуса Джучи (Золотой Орды). От Калки до Астрахани. 1223-1556.-Казань,2002-С.82-95;
58. Джованни дель Плано Карпини. История монголов.-М.,1997.-С71.
59. Данияров Калибек Альтернативная история Казахстана: еще раз о Чингисхане "Экономические стратегии – Центральная Азия", №01-2007, стр. 40-45
60. Егоров В.Л. Историческая география Золотой Орды в XIII-XIV вв. -М.: Наука, 1985. -11,000 экз.
61. Еремян С. Т., Петрушевский И. П. Азербайджан. (В книге ОИ СССР, период феодализма, IX-XV вв., ч. 1, гл. 4, § 8, М., 1953).
62. Иванов - М. С. Очерки истории Ирана. М., 1952.
63. Исхаков Д. М. Тюркско-татарские государства XV-XVI вв. -Казань: Институт истории им. Ш. Марджани АН РТ, 2004. -132 с.- (Biblioteka TATARICA).-500 экз.
64. Исхаков Д. М., Измайлов И. Этнополитическая история татар в VI - первой четверти XV века. -Казань: Институт истории Академии наук Татарстана, 2000. - www.tataroved.ru/publicat/ish_izm.pdf.
65. История СССР. Част первая. С древнейших времен до 1861 года. Москва, 1979,607 с.

66. Почекаев Р. Ю. Орды-цари. - Санкт-Петербург :. Eurasia, 2010. - ISBN 978-5-91852-010-9
67. Усманов М. А. Жалованные акты Джучиева Улуса XIV-XVI вв.-Казань,1979.
68. Карпини, Джованни Плано, Уильям Рубрук . История монголов - Путешествие в страны Востока. - СПб. : 1911.
69. Казиев М., Эфендиев М., Алияров С. История Азербайджана. Изд-но АГУ им. С. М. Кирова. Баку, 1970.
70. Казиев А. Ю. Художественное оформление азербайджанской рукописной книги XIII-XVII веков. М., 1977, стр. 13-16
71. Карышковский *П. О.* Куликовская битва. - М ., 1955.
72. Кульпин *Е.* Золотая Орда. - М : Московская средняя школа, 1998; М .: СССР, 2007.
73. Кычанов Е. И. Сведения из «Истории династии Юань» («Юань ши») о Золотой Орде. // Источниковедение истории Улуса Джучи (Золотой Орды). От Калки до Астрахани. 1223-1556.-Казань,2002.- С.38;
74. Мустакимов И. Об особенностях использования некоторых этногеографических и этнополитических наименований Джучиева Улуса в арабских источниках XIII-XVI вв. // Великий Волжский путь.

Материалы «круглого стола» и Международного научного семинара. Казань. 28-29 августа 2000 года.-Казань,2001.-С.264-266, 271-272).
75. Мысков Е. П. Политическая история Золотой Орды (1236-1313 гг.). - Волгоград: Издательство Волгоградского государственного университета, 2003. - 178 с. - ISBN 5-85534-807-5
76. Мысков Е. П. Политическая история Золотой Орды (1236-1313 гг.). - Волгоград: Издательство Волгоградского государственного университета, 2003. - 178 с. - ISBN 5-85534-807-5
77. Пахомов Е. А. Краткий курс истории Азербайджана с приложением экскурса по истории ширваншахов XI-XIV вв. Баку, 1923, с. 28-30
78. Почекаев *Р. Ю.* Орды-цари. - Санкт-Петербург :. Eurasia, 2010. - ISBN 978-5-91852-010-9
79. Петрушевский И. П. Городская знать в государстве Хулагуидов. «Сов. востоковедение», т., V, 1948; А.М. Беленицкий. К вопросу о социальных отношениях в Иране в Хулагуидскую эпоху. «Сов. востоковедение» т. V, М.-Л., 1948, стр. 111-128.
80. Петрушевский И. П.. Из героической борьбы Азербайджанского народа в XIII- XIV веках. Баку, 1941.
81. Петрушевский И. П. Рашид ад-Дин и его исторический труд. Рашид ад-Дин. Сборник летописей, т. 1, кн. 1, М.-Л., 1952, səh. 7-37;
82. Петрушевский И. П Земледелие и аграрные отношения в Иране XIII-XIV веков. М-Л., 1960; yenə onun. Иран под владычеством монголбских ханов (1220-1336) (Вах:Историн Ирана с древнейших времен до конда XVIIIвека, Л., 1958, səh. 269; səh. 167-169);
83. Путешествия в восточные страны Плано Карпини и Рубрука.-М.,1957.-С8.
84. Рашид-ад-Дин. Сборник летописей. – Том III. – Книга II. – С. 18-49.
85. Rashid ad-Din Полная коллекция рассказов -. Trans. Персидский Ю. П. Верховский, под ред. Проф. И. П. Петрушевский. - M L : Издатель Академии наук СССР, 1960. - Т. 2. - П. 81
86. Рашид ад-Дин. Коллекция анналов. Примечание 1440 - / перевод персидской О. И. Смирновой, пересмотр профессора А. А. Семенова. - M L : Издательство Академия наук СССР, 1952 - том 1, т. ... 2. - P 230.
87. Тизенгаузен В. Г.. Сб. материалов, относящихся к истории Золотой Орды. т. I, Извлечения из сочинений арабских, СПб., 1884,
88. Хамидуллин Б.Л. Народы Казанского ханства. Казань: Татарское книжное издательство, 2002;
89. Хамидуллин Б.Л. Казанское ханство // Большая Российская энциклопедия. М., 2011. –Том 17
90. Сафаргалиев М.Г. Крах Золотой Орды. - Саранск: Мордовское издательство, 1960.
91. Сейфеддини М. А.. Монетное дело и денежное обращение в Азербайджане XII-XV вв., кн. I, Баку, 1978, s. 219;
92. Селезнев Ю. В. Элита Золотой Орды. - Казань: Издательский дом «Фэн» Академии наук Республики Таджикистан, 2009. - С. 9, 88. - 232 с.
93. Сысоев В. М. Краткий курс истории Азербайджана (северного).Баку, 1925.
94. Сумбатзаде А.С. Азербайджанцы-этногенез и формирование народа.Баку:Элм.1990-304 с.
95. Фалина А. И.. Реформы Газан-хана. «Уч зап. ИВАН СССР» т. XVII, М., 1959, стр. 51-76.
96. Федоров-Давыдов Г.А. Социальная структура Золотой Орды. - .: Издательство Московского университета, 1973.
97. Юдин В. П. Орды: Белая, Синяя, Серая... // Чингиз-наме. — Алма-Ата: Гылым, 1992. -С. 32-35.
98. Ярлык хана Золотой Орды Тохтамыша к польскому королю Ягайлу 1392-1393 года. Издан кн. М. А. Оболенским.-Казань,1850.- С.50
99. Закиров С. Дипломатические отношения Золотой Орды с Египтом / Отв. издатель В. А. Ромодин. - M : Наука, 1966. - 160 с.
100. http://rtk-atlantida.ru/site/122
101. **https://www.business-gazeta.ru/blog/328369**
102. https://rg.ru/2015/09/09/rodina-gumilev.html
103. http://www.inesnet.ru/article/alternativnaya-istoriya-kazaxstana-eshhe-raz-o-chingisxane/
104. https://countrymeters.info/ru/Mongolia













